# Yeniyetməni zibil qutusuna atıb videoya çəkdilər

## Naftalanda baş verən hadisə cəza ilə nəticələndi



**Naftalanda yeniyetməni parkda döyərək görüntülərini sosial şəbəkələrdə yayıblar.**

Hadisə şəhər ərazisindəki parkda baş verib.

16 yaşlı İbrahim Musayev (ad və soyad şərtidir - red.) parkda gəzərkən zərərçəkən Elmir Kərimova (ad və soyad şərtidir - red.) yaxınlaşaraq nə səbəbə anası barədə xoşagəlməz ifadələr səsləndirdiyini soruşub.

(səh.4)



## Şəmkirdə su xəttində qəza olub, ətrafı su basıb

**Şəmkirdə su xəttində qəza baş verib, ətrafı su basıb.**

Hadisə rayonun Yeniabad kəndində Şəmkir nasos stansiyası ərazisində qeydə alınıb. Hidrotəzyiq nəticəsində metalın aşınması boruda qəzaya səbəb olub. Nəticədə su stansiyanın həyətənə dolub. Əraziyə FHN əməkdaşları cəlb edilib. Stansiyaya dolan suyun çəkilməsi istiqamətində tədbirlər görülür.

№ 17 (6498) 2026-cı il

Qiyməti 50 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 may - 15 may 2026-cı il (cümə)



# Avropa ilə münasibətlər dəyişir

## Meloni və Kallasın Bakı səfərləri yeni diplomatik mərhələnin siqnalıdır

**Aprel ayında Prezident İlham Əliyev bir sıra Avropa liderlərini qəbul edib, may ayının ilk günlərində isə İtaliyanın baş naziri Georgia Meloni,eyni zamanda Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas Bakıya səfər edib. Ard-arda baş tutan bu səfərlər Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yeni geosiyasi reallıqlar fonunda daha geniş və strateji çərçivədə inkişaf etdiyini nümayiş etdirir.**

Xüsusən K.Kallasın səfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərində enerji, nəqliyyat və regional bağlantılar gündəliyinin daha da aktuallaşdığını göstərir. Belə ki, Azərbaycanın Avropa Cənubi Qafqaz, Xəzər hövzəsi və Mərkəzi Asiya arasında strateji körpü rolunu oynayan mühüm regional aktorun olması bir daha təsdiqlənib. İntensiv təmaslar Avropa Parlamentindəki müxtəlif qərəzli qrupların əməkdaşlığa xələl vurmaq cəhdlərinin uğursuzluğa məhkum olduğunu, ittifaqın icraedici strukturlarının, xüsusilə Avropa Komissiyasının rəsmi Bakı ilə sıx və davamlı tərəfdaşlıqda maraqlı olduğunu nümayiş etdirir.

(səh.3)



## WUF13-ün təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib

**Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin mayın 7-də iclası keçirilib.**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, WUF13-ün başlanmasına az vaxt qaldığını və mayın 17-dən 22-dək Bakı şəhərinin dünyanın şəhərsalma və dayanıqlı inkişaf gündəliyi üzrə ən mötəbər beynəlxalq platformalarından birinə ev sahibliyi edəcəyini diqqətə çatdırıb.

(səh.2)

# Bakıda ictimai nəqliyyatın idarə edilməsində yeni mərhələ başlayır




## Dünyanın bir çox böyük şəhərlərində tətbiq olunan mobillik operatoru modeli artıq Bakıda da formalaşır

**Prezident İlham Əliyev "Bakı Metropoliteni" QSC-nin yenidən təşkili və bununla əlaqədar bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi, bəzi sərəncamlarının ləğv edilməsi haqqında fərman imzalayıb. Fərmana əsasən, "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyəti "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin və "Bakı Taksi Xidməti" Məhdud Məsuliyyətli Cəmiyyətinin ona qoşulması formasında yenidən təşkil ediləcək.**

Bununla da, "Bakı Metropoliteni" QSC hər iki qurumun hüquqi varisi elan olunub. Yenidən təşkil olunan qurum paytaxtda nəqliyyatın mobilliyini təmin edən əsas mərkəz funksiyasını yerinə yetirəcək. Cəmiyyətin səlahiyyətlərinə aşağıdakılar daxil edilib: Metro, avtobus, taksi və tramvay üzrə sərnişindaşıma xidmətlərinin göstərilməsi; Vahid mərkəzdən idarəetmə və gediş haqqının ödənilməsi üzrə innovativ rəqəmsal həllərin (vahid ödəniş sisteminin) tətbiqi; Yeni nəqliyyat infrastrukturu obyektlərinin, o cümlədən avtovağzalların, terminalların, taksi və avtobus parklarının layihələndirilməsi və tikintisi.

(səh.2)



## Hikmət Hacıyev Bakıda Polşa rəsmisi ilə ikitərəfli münasibətləri müzakirə edib

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Polşanın Nazirlər Şurasının üzvü, Xüsusi Xidmət orqanlarının koordinatoru Tomaş Simonyakla görüşüb.**

APA xəbər verir, bu barədə Tomaş Simonyak "X" hesabında paylaşım edib.

Polşa rəsmisi Hikmət Hacıyevlə ikitərəfli münasibətləri - xüsusən də təhlükəsizlik sahəsində vəziyyəti müzakirə edib.

Tərəflər İrandakı vəziyyət, Rusiya-Ukrayna müharibəsi və Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasına dair fikir mübadiləsi aparıblar.




## Müstəqillik ruhu küçə adlarında əks olunmalıdır

### Bakıda sovet adları mərhələli şəkildə tarixə qovuşur

Azərbaycanda sovet dövründən miras qalan küçə, qəsəbə və yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi məsələsi yenidən gündəmə gəlib. Milli Məclisin Regional məsələlər komitəsinin iclasında deputatlar hələ də cəmiyyətdə "Kirov", "Orconikidze", "Jdanov", "Montin", "Varovski" və "Razin" kimi sovet ideologiyasını əks etdirən adların işlədildiyini bildirərək, bunun milli yaddaş və toponimika siyasəti baxımından ciddi məsələ olduğunu vurğulayıblar.

(səh.7)

# Ərdoğan Makronun gizli siyasi sərhəd hesabını pozdu



**Azərbaycan nəzərə alınmadan heç bir normallaşma mümkün deyil**

**Ermənistanda səfərdə olan Makron quru sərhəddən Türkiyəyə keçmək istəsə də, Ankara Bakı ilə danışıqlardan sonra buna icazə verməyib. "AZfront" Teleqram kanalının məlumatına görə, səfər əvvəlcə Türkiyənin ayrı-ayrı nümayəndələri ilə razılaşdırılıb, lakin məsələ Ərdoğanın masasına gəldikdə o, Azərbaycanla müzakirələrdən sonra Makronun quru sərhədini keçməsinə razı olmayıb.**

"Mayın 3-5-də bir sıra tədbirlərdə iştirak etmək üçün İrəvanda səfərdə olan Makron Ərdoğanla görüşmək üçün oradan quru sərhədi vasitəsilə Türkiyəyə yola düşərək, "siyasi cəhətdən rəmzi" jest etməyi planlaşdırırdı.

(səh.4)

## Qəbiristanlığa atılan uşağın atası tapıldı



**Abşeron rayonu ərazisində qəbiristanlıq ərazisinə atılan azyaşlının atası tapılıb.**

Bu barədə Oxu.Az-a Azərbaycan Uşaqlar Birliyinin rəhbəri Kəmalə Ağazadə məlumat verib.

O bildirib ki, həmin şəxsin uşaqla heç vaxt ünsiyyəti olmayıb:

"Burada bioloji atadan söhbət gedir. Onun uşaqla heç vaxt ünsiyyəti olmayıb. O, uşaq barəsində heç nə bilmir. Sadəcə şəklini görüb. Bu şəxsi sığınacağa dəvət etmişik, gəldikdən sonra söhbət aparılacaq".

Xatırladaq ki, mayın 4-də "Fatimeyi-Zəhra" məscidinin yaxınlığındakı Goradil qəbiristanlığından 2 yaşlı oğlan uşağı tapılıb.

Onun anası müəyyənləşdirilib və dövlət qurumuna dəvət olunub. Lakin ana övladından imtina edib.




# Bakıda ictimai nəqliyyatın idarə edilməsində yeni mərhələ başlayır

## Dünyanın bir çox böyük şəhərlərində tətbiq olunan mobillik operatoru modeli artıq Bakıda da formalaşır

**Prezident İlham Əliyev ”Bakı Metropoliteni” QSC-nin yenidən təşkili və bununla əlaqədar bəzi fərman və sərəncamlarında dəyişiklik edilməsi, bəzi sərəncamlarının ləğv edilməsi haqqında fərman imzalayıb. Fərmana əsasən, “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti “BakuBus” Məhdud Məsuliyyətli Cəmiyyətinin və “Bakı Taksi Xidməti” Məhdud Məsuliyyətli Cəmiyyətinin ona qoşulması formasında yenidən təşkil ediləcək.**

Bununla da, “Bakı Metropoliteni” QSC hər iki qurumun hüquqi varisi elan olunub. Yenidən təşkil olunan qurum paytaxtda nəqliyyatın mobilliyini təmin edən əsas mərkəz funksiyasını yerinə yetirəcək. Cəmiyyətin səlahiyyətlərinə aşağıdakılar daxil edilib: Metro, avtobus, taksi və tramvay üzrə sərnişindaşıma xidmətlərinin göstərilməsi; Vahid mərkəzdən idarəetmə və gediş haqqının ödənilməsi üzrə innovativ rəqəmsal həllərin (vahid ödəniş sisteminin) tətbiqi; Yeni nəqliyyat infrastrukturu obyektlərinin, o cümlədən avtovağzalların, terminalların, taksi və avtobus parklarının layihələndirilməsi və tikintisi.

Müəyyən edilib ki, cəmiyyət ictimai nəqliyyat sahəsində (metro, avtobus, tramvay, taksi) sərnişindaşıma üzrə xidmətlər göstərilməsini, onların keyfiyyətinin və təhlükəsizliyinin yüksəldilməsini, həmin xidmətlərin təşkili və gediş haqqının ödənilməsi üzrə innovativ və rəqəmsal həllərin tətbiqini, habelə bu sahədə yeni nəqliyyat infrastrukturu obyektlərinin (metro, tramvay, avtomobil nəqliyyatı üzrə avtovağzalların (avtostansiyaların), terminalların və digər qurğuların, eləcə də taksi və avtobuslara texniki xidmət göstərən texniki-təmir sahələrinin və stansiyalarının) layihələndirilməsini və tikintisini, maddi-texniki bazanın gücləndirilməsini və müasirləşdirilməsini, həmçinin müxtəlif nəqliyyat növləri (metro, avtobus, tramvay, taksi) üzrə xidmətlərin qarşılıqlı inteqrasiyasını, vahid mərkəzdən idarə olunmasını və əlaqələndirilməsini təmin edən kommersiya hüquqi şəxsidir.

Cəmiyyət “BakuBus” Məhdud Məsuliyyətli Cəmiyyətinin və “Bakı Taksi Xidməti” Məhdud Məsuliyyətli Cəmiyyətinin hüquqi varisidir, onların bütün hüquqları və öhdəlikləri, habelə əmlakı ona keçir.

Cəmiyyətin fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün sədr də daxil olmaqla 5 üzvdən ibarət Müşahidə Şurası yaradılır.

Cəmiyyətin fəaliyyətinə cari rəhbərliyi 5 üzvdən – sədr və onun 4 müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

Cəmiyyətin ümumi yığıncağının səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilib:

Azərbaycan Respublikasının Prezidentinə:

Cəmiyyətin yenidən təşkili və ləğvi;

Cəmiyyətin icra orqanının yaradılması;

Cəmiyyətin İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinə (AZCON-a) Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi hallar istisna olmaqla, Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ali idarəetmə orqanının müstəsna səlahiyyətinə aid edilmiş digər məsələlərin Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla həyata keçirilməsi, bu Fərmanın 3.1-ci bəndində və 3.2.1-ci yarımbəndində qeyd edilənlər istisna olmaqla, Azərbaycan Respublikasının normativ hüquqi aktları, eləcə də Cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağa həvalə edilən digər səlahiyyətlərin həyata keçirilməsi həvalə edilir.

Müşahidə Şurasına Cəmiyyətin inkişaf strategiyasına və onun icrası ilə bağlı tədbirlər planına, habelə əsas səmərəlilik göstəricilərinin müəyyən edilməsinə və biznes planına dair Ümumi Yığıncağa təkliflər vermək, Cəmiyyətin gəlirlər və xərclər smetalarını, o cümlədən büdcə proqnozlarının təsdiq edilməsi üçün Ümumi Yığıncağa təqdim etmək və icrasını təmin etmək, xalis aktivlərinin dəyərinin 25 (iyirmi beş) faizindən artıq məbləğdə olan əqdin (xüsusi əhəmiyyətli əqdin), eləcə də müstəqil auditorun rəyi ilə aidiyyəti şəxslə dəyəri Cəmiyyətin aktivlərinin 5 (beş) faizini və daha çox hissəsini təşkil edən əqdin bağlanılmasına dair Ümumi Yığıncağa təkliflər vermək tapşırılır.

**Nəqliyyat və logistika məsələləri üzrə mütəxəssis Rauf Ağamirzəyev “Şərq”ə açıqlamasında bildirdi ki, Bakıda ictimai nəqliyyatın idarə edilməsində yeni mərhələ başlayır:**

- ”BakuBus” və Bakı Taksi Xidməti Bakı Metropoliteni tərkibində birləşdirilir. Bununla metro, avtobus, tramvay və taksi xidmətlərinin vahid mərkəzdən idarə olunması modeli formalaşır. Bu qərar şəhər mobilliyində inteqrasiya olunmuş idarəetmə, vahid ödəniş və rəqəmsal həllər, daha koordinasiyalı marşrut planlaması, gələcək tramvay və multimodal nəqliyyat sistemlərinin inkişafı üçün mühüm addımdır. Dünyanın bir çox böyük şəhərlərində tətbiq olunan mobillik operatoru modeli artıq Bakıda da formalaşır. Bu islahat Bakı şəhərində tıxacların azaldılması, nəqliyyat növləri arasında keçidlərin asanlaşdırılması və sərnişindaşıma keyfiyyətinin beynəlxalq standartlara çatdırılması məqsədi daşıyır.

**İmzalanan fərmanın üstünlüyündən danışan nəqliyyat məsələləri üzrə mütəxəssis Eldəniz Cəfərov da “Şərq”ə açıqlamasında bildirdi ki, müasir şəhərlərdə nəqliyyat ayrı-ayrı seqmentlər üzrə deyil, vahid sistem kimi idarə olunur. Bakı da bu sahədə instutisional transformasiya mərhələsinə daxil olur:**

- Bu fərmanın da əsas məqsədi şəhər nəqliyyatında idarəetmənin optimallaşdırılması, resursların daha səmərəli istifadəsi, müxtəlif nəqliyyat növləri arasında funksional inteqrasiyasının təmin edilməsidir. Bu yenidən təşkilatlanmanın nəticəsindən gözlənti əsasən sərnişin məmnuniyyətinin yaxşılaşdırılmasıdır. Daha təhlükəsiz, daha keyfiyyətli xidmətin həyata keçirilməsidir. Birincisi, intermodal inteqrasiya güclənəcək, metro, avtobus və gələcək resurs sistemləri arasında keçidlər daha rahat və məntiqli təşkil olunacaq. İkincisi, operativlik artacaq, hərəkət intervalları, sərnişin axını və pik saat yükü daha effektiv idarə ediləcək. Üçüncüsü, xidmət keyfiyyəti yüksələcək, vahid standartların tətbiqi, rəqəmsal idarəetmə və nəzarət mexanizmləri xidmət səviyyəsinin yüksəlməsinə səbəb olacaq.

**Məlahət Rzayeva**

# WUF13-ün təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin iclası keçirilib




**Birləşmiş Millətlər Təşkilatının Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) təşkili ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin mayın 7-də iclası keçirilib.**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, Təşkilat Komitəsinin sədri Samir Nuriyev iclası açaraq, WUF13-ün başlanmasına az vaxt qaldığını və mayın 17-dən 22-dək Bakı şəhərinin dünyanın şəhərsalma və dayanıqlı inkişaf gündəliyi üzrə ən mötəbər beynəlxalq platformalarından birinə ev sahibliyi edəcəyini diqqətə çatdırıb.

Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qlobal miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsinin artıq ənənə halını aldığını bildirib. Samir Nuriyev WUF13-ün Azərbaycanın müasir şəhərsalma baxışının, dayanıqlı inkişaf gündəliyinə verdiyi töhfələrin, həmçinin işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq modelinin beynəlxalq miqyasda təqdimatı baxımından mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

Cari 2026-cı ilin ölkəmizdə “Şəhərsalma və Memarlıq İli” elan edilməsinin WUF13-ün əhəmiyyətini daha da artırdığı qeyd olunub. Belə ki, Forumun bu çərçivədə il ərzində həyata keçirilən tədbirlərin məntiqi davamı və əsas beynəlxalq mərhələsi kimi çıxış etdiyi diqqətə çatdırılıb.

Samir Nuriyev Forumda iştirak üçün bu günədək 177 ölkədən 28 mindən çox şəxsin qeydiyyatdan keçdiyini, onların təxminən yarısının xarici nümayəndələr təşkil etdiyini bildirərək, bunun WUF13-ə beynəlxalq marağın yüksək göstəricisi olduğunu qeyd edib.

Təşkilat Komitəsinin sədri Azərbaycanın təşəbbüsü ilə WUF tarixində ilk dəfə keçiriləcək Liderlərin Bəyanatları seqmentinin Forumun siyasi və substantiv baxımdan əsas yeniliklərindən biri olduğunu, bu toplantının şəhərsalma və dayanıqlı məskunlaşma məsələlərini ali səviyyəli qlobal müzakirə predmetinə çevirəcəyini diqqətə çatdırıb.

Liderlər seqmentinə, həmçinin Azərbaycanın sədrliyi ilə keçiriləcək WUF13 Nazirlər Görüşünə, Azərbaycan tərəfindən təşkil olunacaq Xüsusi Sessiyaya, Azərbaycan pavilyonunda nəzərdə tutulan tədbirlərə və işğaldan azad edilmiş ərazilərimizdə aparılan bərpa-quruculuq işlərinin təqdimatına hazırlığın xüsusi diqqətdə saxlanılmasının vacibliyi vurğulanıb.

Daha sonra ümumi hazırlıq prosesinin gedişatı, substantiv, kommunikasiya, protokol, nəqliyyat və təşkilati-logistika sahələrində görülmüş işlər, habelə gündəlikdə duran digər məsələlər üzrə Təşkilat Komitəsinin üzvlərinin məruzələri dinlənilib.

İclasın sonunda Təşkilat Komitəsinin sədri Azərbaycan Respublikası Prezidentinin bu mötəbər tədbirin yüksək səviyyədə təşkili və keçirilməsi ilə bağlı qarşıya qoyduğu vəzifələrə uyğun olaraq, WUF13-ün Azərbaycanın beynəlxalq tədbirlərə ev sahibliyi sahəsində formalaşmış müsbət təcrübəsinin növbəti uğurlu nümunəsinə çevriləcəyinə əminliyini bildirib.

Samir Nuriyev WUF13-ə hazırlıq prosesinin yekun mərhələsində aidiyyəti qurumlar tərəfindən müvafiq məsələlərin operativ və uzlaşdırılmış qaydada həll edilməsi, həmçinin bütün istiqamətlər üzrə işlərin daha da intensivləşdirilməsi və başa çatdırılması barədə tapşırıqlar verib.

# Paşinyan Moskvada parada getməyəcək

**Ermənistan Baş naziri Nikol Paşinyan Moskvada parada getməyəcək.**

Ermənistan mediasının xəbərinə görə, o, bu barədə bu gün jurnalistlərə bildirib.

Paşinyan seçkiqabağı kampaniyaya görə, mayın 9-da Moskvada keçiriləcək paradda iştirak etməyəcəyini bildirib.

*Baş nazir Rusiya Prezidenti Vladimir Putini hələ aprelin 1-də bununla bağlı məlumatlandırdığını qeyd edib.*

# İrəvan zirvəsindən sonra sülh sazişi daha da yaxınlaşdı

## Sabiq səfir Hulusi Kılıç, İlham Əliyev və Paşinyanın çıxışlarını xüsusilə təqdir edib

**Avropa Siyasi Birliyinin 8-ci Zirvə toplantısı Cənubi Qafqaz və daha geniş region üçün diqqət mərkəzində olan mühüm siyasi hadisələrdən biri kimi yadda qaldı. Beynəlxalq münasibətlər sistemində müxtəlif gərginliklərin müşahidə olunduğu dövrdə keçirilən bu toplantı regional əməkdaşlıq, sabitlik və gələcək perspektivlərin müzakirəsi baxımından əhəmiyyətli platforma rolunu oynadı.**

Zirvə çərçivəsində çıxış edən liderlər, o cümlədən İlham Əliyev və Nikol Paşinyan, regionda mövcud vəziyyət, davam edən proseslər və mümkün inkişaf istiqamətləri ilə bağlı mövqelərini ifadə etdilər.

**Sabiq səfir, İMZA İB Türkiyə nümayəndəsi, Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun İdarə Heyətinin üzvü Hulusi Kılıç Avropa Siyasi Birliyinin 8-ci Zirvə toplantısı barədə fikirlərini ”Şərq”lə bölüşüb:** ”Mayın 4-də Cənubi Qafqazda sülh külələri əsdi. Bir tərəfdən Rusiya-Ukrayna müharibəsi, digər tərəfdən ABŞ-İsrailin birgə şəkildə İrana yönəlmiş hücumları davam edir.

Bununla yanaşı, ABŞ ilə Avropa dövlətləri arasında yaranan etimadsızlıq, qeyri-müəyyənlik yaşanır. Belə bir zamanda İrəvanda “gələcəyi qurmaq, Avropada birlik və sabitlik” mövzusu ilə 4 may tarixində Avropa Siyasi Birliyinin 8-ci Zirvə toplantısının keçirilməsi həm Avropa, həm də regionun sülhü baxımından böyük əhəmiyyət daşıyır. 40-dan çox liderin iştirak etdiyi zirvədə Ermənistanın Baş naziri Nikol Paşinyanın çıxışı və Ali Baş Komandan, Prezident İlham Əliyevin videokonfrans formatında tədbirə qatılması zirvəyə damğa vurdu.



Avropa Birliyi Komissiyasının Prezidenti Antonio Kostanın açılış nitqində səsləndirdiyi “Azərbaycanın razılığı olmasaydı, bu zirvəni keçirə bilməzdik” ifadəsi çox önəmlidir.

Çünki Azərbaycan zirvənin İrəvanda keçirilməsinə razılıq göstərdi. Həm Antonio Kostanın, həm Paşinyanın, həm də cənab Prezidentin verdiyi mesajlar, eləcə də Türkiyənin vitse-prezidenti Cevdet Yılmazın çıxışı ümumilikdə Cənubi Qafqazda sülhün əhəmiyyətini vurğuladı. Digər çıxış edənlər - Ukrayna Prezidenti Zelenski və Kanadanın Baş naziri də fikirlərində Ermənistan-Azərbaycan arasında sülh prosesinin vacibliyini xüsusi qeyd etdilər”.

**Sabiq səfir bildirib ki, İlham Əliyev və Paşinyanın çıxışları xüsusi olaraq diqqətəlayiqdir:** ”Paşinyan bildirdi ki, artıq 2 ildir iki dövlət arasında heç bir toqquşma baş vermir, heç bir ölüm hadisəsi qeydə alınmayıb. Bu, müstəqillikdən bəri ilk belə haldır. Eyni zamanda, regiondakı yolların açılması daha böyük əhəmiyyət kəsb edir. Paşinyan çıxışında əlavə olaraq bildirdi ki, Azərbaycanla əməkdaşlıq içindədirlər, ötən il regional yolların açılması istiqamətində addımlar atılıb. Həmçinin beynəlxalq sülh və rifah naminə ”TRİPP marşurutu” adlı layihənin həyata keçirilməsi üçün iş aparıldığını qeyd etdi.

Paşinyan 2028-ci ildə Azərbaycanda keçiriləcək Avropa Siyasi Birliyi zirvəsində iştirak etməyi və Azərbaycana səfər etməyi arzuladığını da ifadə etdi. Bu isə həqiqətən də Cənubi Qafqazda sülh mühitinin formalaşdığını göstərir.

Ali Baş Komandan, Prezident İlham Əliyev isə videokonfrans vasitəsilə qatıldığı zirvədə olduqca mühüm mesajlar verdi. O bildirdi ki, 8 avqust 2025-ci ildə Vaşinqtonda başlamış Ermənistan-Azərbaycan sülh prosesi davam edir. Bu müddət ərzində 28 min ton ərzaq göndərildiyini, Azərbaycan ərazisindən 12 min ton yanacaq tədarük olunduğunu və heç bir toqquşmanın baş vermədiyini qeyd etdi”.

**Ekspert Aİ və AŞPA-nın Azərbaycana qarşı qərəzindən də söz açıb:** ”Bəzi Avropa qurumlarının - Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Azərbaycana qarşı qəbul etdiyi qərarları qınadığını və bunların sülh prosesinə xidmət etmədiyini açıq şəkildə ifadə etdi. Bu fikirlər Avropadan iştirak edənlərin diqqətinə birbaşa çatdırıldı.

Prezidentin bu açıq və birbaşa mövqeyi xüsusi əhəmiyyət daşıyırdı. O, Avropanın ikili yanaşmasını tənqid edərək bunu açıq şəkildə dilə gətirdi. Bu, reallıqların ifadəsidir və həqiqətləri demək hər zaman vacibdir.

Həmçinin qeyd etdi ki, son 5 il ərzində Avropa Parlamenti Azərbaycanla bağlı 14 qərar qəbul edib. O, bu qərarların heç birinin əsaslı olmadığını Avropa Komissiyası rəhbərliyinin və digər liderlərin qarşısında açıq şəkildə bildirdi. Bu, bir prinsipial mövqe və siyasi duruşdur. İlham Əliyev Azərbaycanın gücünü nümayiş etdirdi.

Buna görə də zirvə Azərbaycan baxımından son dərəcə səmərəli keçdi”.

**Hulusi Kılıç zirvədə Türkiyənin iştirakından da danışıb:** ”Türkiyə Respublikasının vitse-prezidenti Cevdet Yılmazın zirvədə iştirakı da tədbirə xüsusi əhəmiyyət qatdı. Son 18 ildə bu səviyyədə ilk iştirak olduğu qeyd edildi. Bunu Paşinyan da məmnuniyyətlə vurğuladı.

Bir tərəfdən Türkiyə Azərbaycan-Ermənistan sülh prosesini izləyir, digər tərəfdən isə Ermənistan-Türkiyə münasibətlərinin normallaşdırılması prosesini davam etdirir. Bu proseslər paralel şəkildə, Azərbaycanla məsləhətləşmələr əsasında aparılır ki, bu da sülh üçün çox vacib bir yanaşmadır. Bu, tərəflərin mövqeyini göstərir.

Ümid edirik ki, 2028-ci ilə qədər Vaşinqtonda paraflanmış sülh sazişi imzalanacaq və regionda sabit sülh bərqərar olacaq. Azərbaycanda keçiriləcək zirvədə də daha fərqli, daha müsbət bir mühitin formalaşacağını gözləyir və arzu edirəm. Yaşasın sülh”.

**Banuçiçək Kalbalıyeva**



# Avropa ilə münasibətlər dəyişir

## Meloni və Kallasın Bakı səfərləri yeni diplomatik mərhələnin siqnalıdır

**Aprel ayında Prezident İlham Əliyev bir sıra Avropa liderlərini qəbul edib, may ayının ilk günlərində isə İtaliyanın baş naziri Georgia Meloni,eyni zamanda Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallas Bakıya səfər edib. Ard-arda baş tutan bu səfərlər Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın yeni geosiyasi reallıqlar fonunda daha geniş və strateji çərçivədə inkişaf etdiyini nümayiş etdirir.**

Xüsusən K.Kallasın səfəri Azərbaycan-Avropa İttifaqı münasibətlərində enerji, nəqliyyat və regional bağlantılar gündəliyinin daha da aktuallaşdığını göstərir. Belə ki, Azərbaycanın Avropa Cənubi Qafqaz, Xəzər hövzəsi və Mərkəzi Asiya arasında strateji körpü rolunu oynayan mühüm regional aktorun olması bir daha təsdiqlənib. İntensiv təmaslar Avropa Parlamentindəki müxtəlif qərəzli qrupların əməkdaşlığa xələl vurmaq cəhdlərinin uğursuzluğa məhkum olduğunu, ittifaqın icraedici strukturlarının, xüsusilə Avropa Komissiyasının rəsmi Bakı ilə sıx və davamlı tərəfdaşlıqda maraqlı olduğunu nümayiş etdirir.

Səfərlərin intensivliyi isə Avropa İttifaqının ayrı-ayrı institutları ilə yanaşı, üzv dövlətlərin də Azərbaycanla əməkdaşlığa artan marağını gündəmə gətirir.

Avropa Parlamentində müşahidə olunan bəzi qərəzli və siyasi motivli yanaşmalar fonunda Avropa Komissiyasının və bir sıra aparıcı Avropa ölkələrinin Bakı ilə enerji, nəqliyyat və regional təhlükəsizlik sahələrində əməkdaşlığı genişləndirməyə üstünlük verməsi diqqət çəkir. Bu proses Azərbaycan–Avropa münasibətlərinin təkcə siyasi deyil, həm də geoiqtisadi və geostrateji amillər üzərində formalaşan yeni mərhələyə keçib-keçmədiyi barədə suallar yaradır.

**Azərbaycan-Avropa arasında müşahidə olunan diplomatik dinamikanı şərh edən politoloq Yusif Bağırzadə "Şərq"ə bildirib ki, Azərbaycan–Avropa münasibətləri təkxətli deyil və ölkəmizin Avropa Parlamenti ilə münasibətləri ilə Avropa İttifaqı arasındakı münasibətlər tamamilə fərqli müstəvidədir:** "Bu da təbiidir, çünki Avropa İttifaqı daxilində müxtəlif institutlar və üzv dövlətlər fərqli prioritetlərə malikdir və bu fərqlilik Azərbaycanla münasibətlərin də çoxsəviyyəli xarakter daşımasına səbəb olur. Meloni və Kallas kimi yüksək səviyyəli rəsmilərin Bakıya səfərləri də bu çoxsəviyyəli diplomatik strukturun aktivləşdiyini göstərən əlamətlərdir.

Bu şəkildə diplomatik təmaslar təbii ki, Aİ ilə Azərbaycan arasında dialoqun intensivləşməsi, siyasi kanalların genişlənməsi və praqmatik əməkdaşlığın güclənməsinə töhfə verir. Xüsusilə enerji, təhlükəsizlik və nəqliyyat sahələrində qarşılıqlı maraqlar Avropa üçün Azərbaycanı daha önəmli tərəfdaşa çevirib.

Bu prosesin əsas geosiyasi səbəblərindən biri Avropanın enerji təhlükəsizliyi böhranıdır. Rusiya–Ukrayna müharibəsi fonunda Avropa İttifaqı enerji təchizatını diversifikasiya etməyə məcbur qalıb. Bu kontekstdə Azərbaycan etibarlı alternativ qaz və enerji təchizatçısı kimi ön plana çıxıb. Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya enerji ixracı Bakının strateji əhəmiyyətini artırıb və bu, siyasi münasibətlərin də yumşalmasına təsir göstərib. Yəni burada iqtisadi faktor birbaşa siyasi yaxınlaşmanı stimullaşdırır".

**Y.Bağırzadənin sözlərinə görə, digər mühüm amil Avropanın özünün Cənubi Qafqaz marağıdır:** "Regionda Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi, yeni nəqliyyat və tranzit layihələri, o cümlədən Zəngəzur dəhlizi kimi təşəbbüslər Avropa üçün həm iqtisadi, həm də geosiyasi baxımdan vacibdir. Avropa İttifaqı regionun sabitləşməsini öz enerji və ticarət maraqları üçün kritik hesab edir və bu baxımdan Azərbaycanla əməkdaşlıq mühüm vasitə kimi çıxış edir.

Daha bir faktor isə Avropa İttifaqının daxili siyasi strukturu ilə bağlıdır. Avropa Parlamentindən fərqli olaraq Avropa Komissiyası və ayrı-ayrı üzv dövlətlər daha praqmatik, iqtisadi və strateji maraqlara əsaslanan siyasət yürüdür. Məhz buna görə də Parlamentdəki qərəzli yanaşmalar ümumi Aİ siyasətini tam müəyyən etmir. Meloni kimi liderlər və İtaliya kimi ölkələr enerji və iqtisadi əməkdaşlıq baxımından Azərbaycanla münasibətləri daha çox real siyasi çərçivədə qiymətləndirirlər.

Ən nəhayət, daha bir amil qlobal güc balansının dəyişməsidir. ABŞ–Çin rəqabəti, Rusiya ilə Qərb arasında gərginlik və Yaxın Şərqdə qeyri-sabitlik Avropanı daha çevik və çoxvektorlu xarici siyasətə məcbur edir. Bu şəraitdə Azərbaycan kimi regional "körpü dövlətlər"in rolu artır. Bakı həm Şərq-Qərb, həm də Şimal-Cənub marşrutlarında tranzit və enerji mərkəzi kimi çıxış edir ki, bu da ölkəmizi daha cəlbedici edir.

Odur ki, Avropa Parlamentindəki bəzi tənqidi mövqelərə baxmayaraq, Avropa Komissiyası və bir sıra üzv dövlətlərin Azərbaycanla əməkdaşlığa artan marağı əsasən üç böyük amilə bağlıdır: enerji təhlükəsizliyi, regional sabitlik və dəyişən qlobal geosiyasi balans. Bu isə münasibətlərin ideoloji müstəvidən daha çox praqmatik və strateji müstəviyə keçdiyini göstərir".

**Şəymən Bayramova**

# Yaxın gələcəkdə Rusiya-Ukrayna müharibəsi bitməyəcək

## Aydın Sezer: "Bu, bədbinlikdən deyil. Real siyasət və dünya siyasətindəki inkişaflar çərçivəsində vəziyyət belə qiymətləndirilməlidir"




**Yaxın Şərqdə artan gərginlik və xüsusilə Körfəz bölgəsi ətrafında baş verən hadisələr fonunda bir addım arxaya keçən Rusiya-Ukrayna müharibəsi yenidən alovlanıb.**

Böyük güclərin prioritetlərinin yenidən formalaşması və siyasi diqqətin müxtəlif regionlar arasında bölüşdürülməsi müharibənin dinamikasına da təsir edir. Mövcud şəraitdə tərəflər arasındakı qarşıdurma davam edir. Proseslərin necə davam edəcəyi isə beynəlxalq münasibətlər sistemində baş verən hadisələrə bağlı olacaq.

**Xarici siyasət üzrə türk ekspert Aydın Sezer "Şərq"ə bildirib ki, 4 ildən çoxdur davam edən Rusiya-Ukrayna müharibəsi ilə bağlı, İran müharibəsi başladıqdan sonra əhəmiyyətli irəliləyiş qeydə alınmayıb:** "Rusiya-Ukrayna müharibəsi ikinci plana keçdi. Amerika Birləşmiş Ştatları və Qərb dünyası bütün diqqətlərini İrana və Körfəz bölgəsinə yönəldib.

Buna görə də Rusiya-Ukrayna müharibəsi hazırda Moskvanın istədiyi kimi, Rusiyanın nəzarətində davam edir. Çünki İran müharibəsinin bütün diqqətləri Körfəzə yönəltməsi, silah və sursatın həmin bölgəyə və İran müharibəsinə istiqamətləndirilməsi Rusiyanın xeyrinə işləyir. Rəsmi Moskva həmçinin müharibə səbəbindən artan neft gəlirlərindən faydalanır, onun iqtisadiyyatı və büdcəsi yaxşılaşır".

**Politoloq qeyd edib ki, müharibənin hazırda Rusiyanın təşəbbüsü ilə davam etməsi Zelenskinin bütün ümidlərini, gözləntilərini, Qərbdən gözlədiyi dəstəyi puça çıxarır:** "Rusiya, Zəfər Günü münasibətilə, 81-ci ildönümü tədbirləri ilə əlaqədar olaraq 8 və 9 may tarixlərində iki günlük birtərəfli atəşkəs elan etdi. Bu doğrudur və təşəbbüsün Rusiyadan olduğunu göstərir. Ancaq Ukrayna Krıma hücum edir, neft obyektlərinə zərbələr endirir, Rusiyanın daxili bölgələrinə kamikadze dronlarla hücumlar təşkil edir. Lakin burada Ukraynanın arxasında İngiltərənin və digər Qərb ölkələrinin birbaşa iştirak etdiyini, silah və sursat dəstəyi verdiyini, Rusiyanı həm nüfuzdan salmaq, həm də ona zərər vermək məqsədilə, təbii ki, psixoloji baxımdan fəaliyyət apardıqlarını görürük.

Bu, şüurlu bir seçimdir. Müharibənin adi gedişi çərçivəsində bunu normal qarşılamaq lazımdır. Amma unutmayaq ki, Rusiyanın işğalı və işğal altında saxladığı, həmçinin ilhaq etdiyi Ukrayna torpaqlarındakı qazancları da başqa bir reallıq və ölçüdür".

**Analitik müharibə ilə bağlı proqnoz verib:** "Yaxın gələcəkdə Rusiya-Ukrayna müharibəsinin başa çatmasına yönəlik hər hansı bir irəliləyiş olmayacaq. Bu, bədbinlikdən deyil. Real siyasət və dünya siyasətindəki inkişaflar çərçivəsində vəziyyət belə qiymətləndirilməlidir".

**Banuçiçək**

# Ermənistan böyük güclərin oyun meydanına çevrilib

## Ermənistanda hakimiyyətin taleyi Vaşinqton və Brüsseldə həll olunur

**Cənubi Qafqazda son illərdə müşahidə olunan geosiyasi dinamika region ölkələrinin xarici siyasət kursunu və böyük güclər arasında rəqabətin istiqamətlərini daha aydın şəkildə üzə çıxarır. Bu kontekstdə Ermənistanda hakimiyyətin siyasəti, xüsusilə Nikol Paşinyanın yürütdüyü xətt və onun Qərb institutları ilə münasibətləri geniş müzakirə mövzusuna çevrilib.**

Bu hadisələrin fonunda Ermənistan ilə Fransa arasında strateji tərəfdaşlıq bəyannaməsi qəbul edilib. "Armenpress"in xəbərinə görə, sənədi Ermənistan Baş naziri Nikol Paşinyan və Fransa Prezidenti Emmanuel Makron imzalayıb. İmzalanma mərasimindən əvvəl Paşinyan və Makron arasında təkbətək görüş olub.

Bu da onu göstərir ki, Ermənistanda gedən siyasi proseslər, qarşıdan gələn seçkilər və xarici təsirlərin rolu regionun gələcək siyasi arxitekturasını anlamaq üçün mühüm əhəmiyyət kəsb edir.

**Politoloq Azad Məsiyev "Şərq"ə Ermənistan-Avropa münasibətlərindən danışıb:** "Paşinyan Ermənistanda Amerika Birləşmiş Ştatları və Avropa Birliyinin himayəsi ilə hakimiyyətə gətirilib. O, açıq şəkildə Qərb qarşısında müəyyən öhdəlik götürüb. Bu öhdəlik ondan ibarətdir ki, Rusiyanın Ermənistandakı nüfuzunu zəiflətsin və ölkədə qərbyönlü siyasi kurs həyata keçirsin. Bu illər ərzində Paşinyan bu xətti uğurla davam etdirir. Diqqət yetirsəniz, onun siyasəti nəticəsində Ermənistan Rusiya platformalarını boykot edir və zaman-zaman Rusiyanın təsir dairəsindən çıxmaq üçün addımlar atır. Xüsusilə də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını boykot edir və Müstəqil Dövlətlər Birliyinin toplantılarına ikinci, üçüncü dərəcəli şəxslər göndərir.



Bu, Ermənistanın Rusiyanın təsir dairəsindən çıxarılması, qərbyönlü siyasətin həyata keçirilməsi və Qərbin təsirinin gücləndirilməsi deməkdir".

**Politoloq qeyd edib ki, hazırda Ermənistanda ciddi təlatüm müşahidə olunur:** "İyun ayında parlament seçkiləri keçiriləcək və hakimiyyətin kimə keçəcəyi məsələsi gündəmdədir. Əgər Paşinyan hakimiyyətdən getsə, ölkədə yeni siyasi situasiya yaranacaq. Bu baxımdan, başda Amerika Birləşmiş Ştatları olmaqla Qərb, xüsusilə də Avropa Birliyi ölkələri Paşinyana həm siyasi, həm də iqtisadi dəstək verir. Məqsəd onu hakimiyyətdə saxlamaq və bu siyasi kursun davamını təmin etməkdir.

Bu çərçivədə müxtəlif dövlətlərin rəhbərləri Ermənistana səfərlər edir, həm ikitərəfli, həm də çoxtərəfli görüşlər keçirilir. Məqsəd Paşinyanı hakimiyyətdə saxlamaq və seçkilərdə ona dəstək verməkdir. Əslində isə Ermənistanda hakimiyyətin mənbəyi xalq deyil, Vaşinqton, Brüssel və ya Moskva kimi xarici mərkəzlərdir. Bu isə ölkədə gərginliyi artırır.

Fransa da bu proseslərdə xüsusi fəallıq göstərir. Ermənistanda keçirilən beynəlxalq toplantıda Avropa ölkələrinin rəhbərləri fəal iştirak etdilər. Fransa Prezidenti Makronun toplantıda aktivliyi xüsusilə diqqət çəkdi. Məlumdur ki, Fransada erməni lobbisi güclüdür və Ermənistanın siyasətini bu ölkə açıq şəkildə dəstəkləyir. Ermənistan-Fransa əməkdaşlığı da məhz bu xətt üzrə inkişaf edir.

Ümumilikdə, Avropa Birliyi Cənubi Qafqaz respublikalarını öz təsir dairəsinə salmaq niyyətindədir. Bu məqsədə nail olduqdan sonra isə regionu Rusiyaya qarşı istifadə etməyi planlaşdırır. Gürcüstanın baş naziri də açıq şəkildə bəyan etdi ki, Avropa Birliyi Gürcüstana Rusiyaya qarşı ikinci cəbhə açmaq üçün təzyiq göstərir. Gürcüstan bu tələbi yerinə yetirmədiyinə görə ona qarşı təzyiqlər artdı".

**Analitik Azərbaycanın da eyni təzyiqlərlə üzləşdiyini söyləyib. Onun sözlərinə görə, Fransa və Aİ Ermənistanın əli ilə Cənubi Qafqazda gərginlik yaratmaq niyyətindədir:** "AŞPA-da və Avropa Parlamentində Azərbaycana qarşı qərarlar qəbul edilir, şantaj və təzyiq metodlarından istifadə olunur. Bütün bunlar Avropa Birliyinin Cənubi Qafqaz ölkələrini öz təsiri altına salmaq istəyindən irəli gəlir. Bu prosesdə Ermənistan xüsusi rol oynayır.

Paşinyan isə Ermənistanın milli maraqlarından çox, Qərbin maraqlarına uyğun siyasət aparır. Fransa ilə əməkdaşlıq da bunu açıq şəkildə göstərir. Fransa, Ermənistanı dəstəkləməklə bu siyasətin daha sürətli həyata keçirilməsində maraqlıdır.

Avropa Birliyi, xüsusilə də Fransa, Ermənistan üzərindən Cənubi Qafqazda gərginlik yaratmaq niyyətindədir. AŞPA-da qəbul edilən qərarlar da bu məqsədə xidmət edir. Fransa bu proseslərdə ən fəal dövlətlərdən biridir.

Fransa ilə Ermənistan arasında əməkdaşlıq regionda sabitliyi pozmağa yönəlmiş addımdır. Çünki Paşinyanın siyasəti qlobal güclərin maraqlarını uzlaşdırmaq deyil, əksinə, onları toqquşdurmaq istiqamətindədir. Əgər Paşinyan həqiqətən Ermənistanın və erməni xalqının maraqlarını düşünürsə, o zaman qonşu ölkələrlə, xüsusilə Türkiyə və Azərbaycanla münasibətləri normallaşdırmalıdır. Lakin onun siyasəti ziddiyyətlidir: bir tərəfdən Avropa və ABŞ ilə əməkdaşlıq edir, digər tərəfdən Rusiya ilə əlaqələri saxlayır, eyni zamanda Türkiyə və Azərbaycanla münasibətləri düzəltmək görüntüsü yaradır.

Əslində isə məqsəd aydındır - hakimiyyətdə qalmaq və Qərbin sifarişi ilə siyasət yürütmək".

**Müsahibimiz bildirib ki, Ermənistan-Fransa əməkdaşlığı üçüncü tərəfə, yəni Azərbaycana qarşı yönəlib:** "Uzun müddətdir ki, Fransanın Azərbaycana qarşı qərəzli mövqeyi müşahidə olunur. Həm Avropa Parlamentində, həm də Fransa Parlamentində Azərbaycan əleyhinə dinləmələr keçirilir, qətnamələr qəbul olunur.

Bu isə Fransanın Azərbaycana düşmən münasibət sərgilədiyini göstərir. Ermənistan-Fransa əməkdaşlığı da məhz Azərbaycanın əleyhinə yönəlmiş siyasətin tərkib hissəsidir. Bu da beynəlxalq normalara ziddir.

44 günlük Vətən müharibəsindən sonra da Fransanın Azərbaycana qarşı siyasi təzyiq siyasəti davam etdi. Azərbaycan BMT platformasında gündəmə gətirilməyə çalışılıb, ona insan haqları bəhanəsi ilə təzyiqlər göstərilib.

Nəticə etibarilə, Fransanın Ermənistan üzərindən Azərbaycana qarşı düşmənçilik siyasətini gücləndirmək niyyətində olduğu görünür. Ermənistan-Fransa əməkdaşlığı da bu istiqamətə xidmət edir".

**Banuçiçək Kalbalıyeva**

# Azərbaycanda əməkhaqqı bərabərliyi ilə bağlı yeni qaydalar qüvvəyə mindi

**Azərbaycanda kişi və qadınların əməkhaqqı bərabərliyinin təmin edilməsi ilə bağlı qanunvericilik bazası təkmilləşdirilib.**

Əmək Məcəlləsinə və "Gender bərabərliyinin təminatları haqqında" Qanuna edilən dəyişikliklərə əsasən, işəgötürənlər üçün yeni öhdəliklər müəyyən edilib.

Dəyişikliyə əsasən, işəgötürən cinsindən asılı olmayaraq eyni və ya bərabər dəyərli müxtəlif işi yerinə yetirən işçilərə bərabər əməkhaqqı ödəməyə borcludur. Bu tələb həm Əmək Məcəlləsinin işəgötürənin əsas vəzifələrini əks etdirən maddəsinə, həm də əməkhaqqının ödənilməsi qaydalarına əlavə edilib.

Qanunvericilikdə işin bərabər dəyərli sayılması üçün konkret meyarlar təsbit olunub. İşin bərabər dəyərli olması aşağıdakı amillər nəzərə alınmaqla işəgötürən tərəfindən müəyyən edilir:

Əmək şəraiti;

Əmək funksiyasının xarakteri;

Qüvvədə olan vahid tarif-ixtisas sorğu kitabçalarında nəzərdə tutulmuş tarif-ixtisas xüsusiyyətləri.

"Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında" Qanuna edilən düzəlişlə bu sahədəki tələblər Əmək Məcəlləsi ilə uyğunlaşdırılıb. Bildirilir ki, eyni və ya bərabər dəyərli işə görə əməkhaqqı bərabər ödənilməlidir.

*Qanun imzalandığı gündən qüvvəyə minib.*



# Ərdoğan Makronun gizli siyasi sərhəd hesabını pozdu

## Azərbaycan nəzərə alınmadan heç bir normallaşma mümkün deyil

**Ermənistanda səfərdə olan Makron quru sərhəddən Türkiyəyə keçmək istəsə də, Ankara Bakı ilə danışıqlardan sonra buna icazə verməyib. ”AZfront” Teleqram kanalının məlumatına görə, səfər əvvəlcə Türkiyənin ayrı-ayrı nümayəndələri ilə razılaşdırılıb, lakin məsələ Ərdoğanın masasına gəldikdə o, Azərbaycanla müzakirələrdən sonra Makronun quru sərhədini keçməsinə razı olmayıb.**

“Mayın 3-5-də bir sıra tədbirlərdə iştirak etmək üçün İrəvanda səfərdə olan Makron Ərdoğanla görüşmək üçün oradan quru sərhədi vasitəsilə Türkiyəyə yola düşərək, ”siyasi cəhətdən rəmzi” jest etməyi planlaşdırırdı. Ehtimal ki, Makron uğursuz xarici siyasətinin beynəlxalq səviyyədə tənqid olunması fonunda Ermənistandan Türkiyəyə səfərini öz diplomatik çəkisinin nümayişinə çevirməyə ümid edirdi. Fransa Prezidentinin artıq 30 ildən çoxdur bağlı olan Türkiyə-Ermənistan sərhədini keçməsi üçüncü tərəfin ikitərəfli kommunikasiyaları açmasının misilsiz nümunəsi ola bilərdi.

Afrikanı və Yaxın Şərqi itirən, İsraillə münasibətləri korlayan və Ukrayna istiqamətində heç nəyə nail olmayan Makron bu baş tutmayan cəhdi ilə öz geosiyasi ambisiyaları və Parisin beynəlxalq arenadakı real çəkisi arasındakı uçurumu bir daha vurğuladı”, - deyə nəşr ”Le Journal du Dimanche” qəzetinin ”Fransa diplomatiyası Makronun dövründə sürətlə öz əhəmiyyətini itirir” adlı məqaləsini də misal gətirərək yazıb.

**Siyasi ekspert Elçin Xalidbəyli ”Şərq”ə açıqlamasında bildirib ki, Fransa yenidən Cənubi Qafqazda möhkəmlənmək və regiondakı geosiyasi proseslərin iştirakçısına çevrilmək**

### Paşinyan və Makron Türkiyə-Azərbaycan xəttinə qarşı koordinasiyalı hərəkət edirdi

**üçün Ermənistan üzərindən fəallaşmağa çalışır. Onun sözlərinə görə, Emmanuel Makronun İrəvanda olduğu vaxt Türkiyəyə quru sərhədi vasitəsilə keçmək istəyi də məhz bu məqsədə hesablanmış siyasi addım idi.**

**Elçin Xalidbəyli bildirib ki, Fransa yenidən Cənubi Qafqazda möhkəmlənmək və regiondakı geosiyasi proseslərin iştirakçısına çevrilmək üçün Ermənistan üzərindən fəallaşmağa çalışır. Onun sözlərinə görə, Emmanuel Makronun İrəvanda olduğu vaxt Türkiyəyə quru sərhədi vasitəsilə keçmək istəyi də məhz bu məqsədə hesablanmış siyasi addımdır:** “Fransa uzun müddətdir Cənubi Qafqazda öz təsir imkanlarını genişləndirməyə çalışır və bu siyasətdə əsas dayaq nöqtəsi kimi Ermənistandan istifadə edir. Makronun Ermənistan-Türkiyə sərhədindən keçmək cəhdi də Parisin regionda yeni siyasi mövqe qazanmaq niyyətindən xəbər verir. Fransa Cənubi Qafqazda geosiyasi proseslərin birbaşa iştirakçısına çevrilmək istəyir. Lakin Azərbaycan buna prinsipial şəkildə qarşı çıxır. Vaxtilə Prezident İlham Əliyev Fransanın Azərbaycan-Ermənistan sülh prosesində iştirakına açıq şəkildə etiraz etmişdi. Məhz bundan sonra vasitəçilik formatında dəyişiklik baş verdi və sülh prosesi daha intensiv mərhələyə keçdi”.

**Ekspert hesab edir ki, Paris yenidən proseslərə təsir imkanlarını bərpa etməyə çalışırdı, ancaq budəfəki cəhdi də nəticəsiz qaldı:** “Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan hər zaman Azərbaycanla münasibətlərdə prinsipial mövqe nümayiş etdirib və bu dəfə də Ankara Bakının maraqlarını nəzərə aldı. Bununla açıq mesaj verildi ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşması ilk növbədə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşmasından və yekun sülh sazişinin imzalanmasından asılıdır. Görünən odur ki, Paşinyan hakimiyyəti ilə Makron koordinasiyalı şəkildə Türkiyə-Azərbaycan strateji tərəfdaşlığı fonunda yeni siyasi vəziyyət yaratmağa çalışırdı. Məqsəd ondan ibarət idi ki, Fransa prezidenti 30 ildən artıq bağlı qalan sərhədi Ermənistan ərazisindən keçərək Türkiyəyə daxil olsun və bununla beynəlxalq ictimaiyyətə sərhədlərin açılması prosesinin Azərbaycandan asılı olmadığı mesajı verilsin. Lakin Ankara buna imkan vermədi. Ərdoğan və Əliyev arasında mövcud olan strateji müttəfiqlik bu planı Paşinyanla Makronun şər ittifaqını iflasa uğratdı. Türkiyə faktiki olaraq göstərdi ki, regionda hər hansı normallaşma prosesi Azərbaycanın maraqları nəzərə alınmadan mümkün deyil. Ərdoğan Türkiyənin qapılarını Makronun üzünə bağlayaraq açıq şəkildə mesaj verdi ki, Ermənistan ərazisindən Türkiyə ərazisinə keçmək istəyirlərsə, Azərbaycanın maraqları nəzərə alınmalı, sülh şərtləri qeyd-şərtsiz qəbul edilməlidir”.

**Şəymən Bayramova**

# Yeniyetməni zibil qutusuna atıb videoya çəkdilər

## Naftalanda baş verən hadisə cəza ilə nəticələndi



**Naftalanda yeniyetməni parkda döyərək görüntülərini sosial şəbəkələrdə yayıblar.**

Lent.az xəbər verir ki, hadisə şəhər ərazisindəki parkda baş verib.

16 yaşlı İbrahim Musayev (ad və soyad şərtidir - red.) parkda gəzərkən zərərçəkən Elmir Kərimova (ad və soyad şərtidir - red.) yaxınlaşaraq nə səbəbə anası barədə xoşagəlməz ifadələr səsləndirdiyini soruşub. Elmir etiraz etdikdə İbrahim bu barədə əlində səs yazısı olduğunu deyib. Daha sonra əsəbiləşdiyi üçün o, yanındakı iki tanışı ilə köməkləşərək Elmiri yaxınlıqdakı zibil qabına atıblar. Tanışlarından biri hadisəni telefonla videoya çəkib. Elmir ərazidən uzaqlaşmaq istəyəndə isə İbrahim onu vuraraq yerə yıxıb.

Sonra hadisənin videosu Tiktok sosial şəbəkəsində paylaşılıb.

Zərərçəkənin şikayəti əsasında İbrahim polis əməkdaşları tərəfindən saxlanılıb. Onun barəsində İnzibati Xətalar Məcəlləsinin 157-ci (döymə) və 510.2-ci (xırda xuliqanlıq, yəni ictimai qaydanı pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən, lakin fiziki şəxslər üzərində zor tətbiq olunması ilə və ya belə zorun tətbiq edilməsi hədəsi, yaxud özgənin əmlakının məhv edilməsi və ya zədələnməsi ilə müşayiət edilməyən hərəkətlərə görə) maddələri ilə protokol tərtib olunub.

İbrahim Musayev ifadəsində əməlindən peşman olduğunu, Elmirdən və onun anasından üzr istədiyini bildirib.

Zərərçəkənin qanuni nümayəndəsi isə şikayətçi olduğunu deyərək, həm İbrahimin, həm də Elmiri zibil qutusuna atan digər şəxsin cəzalandırılmasını xahiş edib.

Barəsində inzibati xəta üzrə icraat aparılan İbrahimin vəkili isə müvəkkilinin yeniyetmə olduğunu nəzərə alaraq yüngül cəza verilməsini istəyib.

**Məhkəmənin qərarı ilə İbrahim Musayev 500, ona kömək edən tanışı isə 400 manat məbləğində inzibati qaydada cərimələniblər.**



**Yaxın Şərq ətrafında gərginliklə bağlı müxtəlif iddialar və siyasi bəyanatlar diqqət mərkəzindədir. Xüsusilə Donald Tramp və digər siyasi fiqurların açıqlamaları prosesin daha da gərgin görünməsinə səbəb olur.**

# Hərbi yox, siyasi həll qaçılmazdır

## **Əfşar Süleymani:** “ABŞ və İran arasında dolayı danışıqlar həlledici mərhələyə keçib”

Lakin eyni zamanda diplomatik kanalların tam bağlanmaması və dolayı ünsiyyət mexanizmlərinin davam etməsi vəziyyətin fərqli istiqamətdə də inkişaf edə biləcəyini göstərir.

**İranın Azərbaycandakı keçmiş səfiri Əfşar Süleymani ”Şərq”ə bildirib ki, həm informasiya axınına, həm kütləvi informasiya vasitələrinə, həm də Donald Trampın bəzi təzadlı açıqlamalarına diqqət yetirəndə müharibənin qızışmaq üzrə olduğu görünür:** ”Lakin başqa prizmadan baxanda mümkündür ki, müharibə qızışmasın. Çünki əslində, faktlar və səbəblər müharibənin genişlənməyəcəyini demək olar ki, sübut edir. Sadəcə, ritorika və danışıq üslubu vəziyyəti gərgin göstərir.

Hazırda tərəflər dolayı yollarla ünsiyyət qurur. Məsələn, ABŞ vasitəçilər üzərindən Pakistana təkliflər göndərir, İran isə cavablarını bildirir və geri ötürür. Bu hal artıq bir neçə dəfə təkrarlanıb. Son olaraq ABŞ-nin 14 bəndlik təklif paketi təqdim etdiyi deyilir və İran bunu araşdırır, öz mövqeyini hazırlayır.

Tramp bəzi addımları dayandırsa da, ümumi mühasirə siyasəti davam edir. Əvvəl belə hesab edirdilər ki, İran bir neçə gün və ya həftə ərzində təslim olacaq, neft ixracı dayanacaq və iqtisadi təzyiq nəticə verəcək. Amma bu baş vermədi.

İran müəyyən dərəcədə vəziyyəti idarə edə bildi. Bəzi tankerlər yenə də fəaliyyət göstərdi, alternativ yollar tapıldı. Bəzən gəmilərin saxlanıldığı iddia olunur, amma ümumilikdə İran həm dəniz, həm də quru yolları (dəmir yolu, Xəzər istiqaməti və s.) vasitəsilə müəyyən fəaliyyətini davam etdirir.

Bu səbəbdən ABŞ-nin istədiyi nəticənin tezliklə əldə olunacağı real görünmür”.

**Analitikin sözlərinə görə, ehtimal olunur ki, dolayı danışıqlar müəyyən nəticə versin:** ”İran əsas şərt kimi mühasirənin qaldırılmasını istəyir və təklif edir ki, əvvəlcə müəyyən müddət, məsələn, bir ay normal iqtisadi əlaqələr bərpa olunsun, sonra digər məsələlər müzakirə edilsin.

Mətbuatda yayılan məlumatların bir hissəsi təsdiqlənmir və dezinformasiya da ola bilər. İran bir çox iddiaları rəsmi şəkildə qəbul etmir.

Digər tərəfdən, ABŞ daxilində də vəziyyət mürəkkəbdir. Tramp daxili təzyiqlərlə üzləşir, reytinqlər aşağı düşür, müharibəyə dəstək zəifdir və Konqresdə ciddi tənqidlər var. Seçkilərin yaxınlaşması da əlavə risk yaradır.

Bundan əlavə, qlobal bazarlarda, xüsusilə neft bazarında qeyri-sabitlik müşahidə olunur. Qiymətlər tez-tez dəyişir. ABŞ-də benzin qiymətləri də artıb. Hörmüz boğazı üzərindən yalnız enerji deyil, bir çox digər məhsulların daşınması da həyata keçirilir. Bu, qlobal iqtisadiyyata təsir edir.

Bu amilləri nəzərə alanda görünür ki, məsələ hərbi yox, daha çox siyasi yolla həll olunmalıdır. Davamlı danışıqlar və kompromis vacibdir. Çünki ultimatum və təhdidlər nəticə vermir.

İndiyə qədər nə ABŞ, nə də İsrail istədiklərinə tam nail ola bilib. ABŞ hərbi baxımdan güclü olsa da, İran da müqavimət göstərir. Müharibə nəticəsində İranda ciddi insan itkisi və dağıntılar olub, bu isə humanitar baxımdan ağır nəticələr doğurur”.

**Sabiq səfir vurğulayıb ki, beynəlxalq səviyyədə də bu addımlar birmənalı qarşılanmayıb:** ”Bəzi ölkələr hücumların səbəblərinin kifayət qədər sübut olunmadığını bildirir.

Digər tərəfdən, İran diplomatik fəallığını artırır və Çin kimi ölkələrlə əlaqələri gücləndirir. ABŞ isə bu problemi həll etmədən digər böyük məsələlərdə uğur qazanmaqda çətinlik çəkir.

BMT Təhlükəsizlik Şurasında İran əleyhinə qətnamə təşəbbüsləri də var, amma Rusiya və Çin kimi ölkələrin veto ehtimalı yüksəkdir.

Ümumilikdə, dünya ictimai rəyində ABŞ-yə inamın müəyyən qədər azaldığı müşahidə olunur. Körfəz ölkələri də bu prosesdən gözlədikləri nəticəni əldə etmədiklərini görürlər.

Buna görə ehtimal etmək olar ki, davamlı hərbi eskalasiya ABŞ üçün də sərfəli deyil”.

**Müsahibimiz qeyd edib ki, təhdidlər səslənsə də, genişmiqyaslı müharibə və ya böyük bombardman ehtimalı aşağıdır:** ”Çünki bunun nəticəsi qeyri-müəyyən və risklidir.

Nəticə olaraq, bu məsələnin həlli yalnız qarşılıqlı razılaşma ilə mümkündür. Danışıqlar birtərəfli diktə ilə yox, kompromis əsasında aparılmalıdır. Əks halda, heç bir tərəf istədiyinə nail ola bilməyəcək”.

**Banuçiçək Kalbalıyeva**

# Ermənistan Rusiyanın orbitindən çıxır

## **Natiq Miri:** “Vaşinqton razılaşması hər şeyi dəyişdi, regionda yeni geosiyasi xəritə cızılır”



**Erənistanın Avropa İttifaqına inteqrasiya kursunu sürətləndirməsi və Azərbaycanla münasibətlərin normallaşdırılması istiqamətində atılan addımlar regionda yeni geosiyasi reallıq formalaşdırır. Bu proseslərin Rusiyanın maraqlarına uyğun gəlmədiyi barədə fikirlər isə getdikcə daha açıq səslənir. Erməni politoloq Armen Petrosyan da hesab edir ki, Moskva İrəvanın Qərbə yaxınlaşmasından və Bakı ilə barışıq prosesindən narahatdır.**

**Politoloq Natiq Miri ”Şərq”ə deyib ki, Ermənistanın Avropa İttifaqına inteqrasiyası Ermənistanın Rusiyanın orbitindən çıxması anlamına gəlir. Ona görə Rusiya narahatdır:** ”Çünki Rusiyanın orbitindən çıxılması Moskvanın Ermənistana həm təhlükəsizlik, həm də iqtisadi yönümdən təsir imkanlarını yox edəcək. Digər tərəfdən Avropa İttifaqı–Ermənistan yaxınlaşması daha da ciddiləşər və institutlaşarsa, bu, perspektivdə nüvəsi Rusiya olan bütün birliklərdən, ittifaqlardan Ermənistanın çıxması anlamına gələcək. Bu, həmçinin Ermənistan sərhədlərinin məhz Ermənistan sərhəd qoşunları tərəfindən qorunması anlamına gələcək. Ən nəhayət, Rusiyanın Ermənistandakı hərbi varlığına da tədricən son qoyulacaq. Yəni Gümrüdəki 102 nömrəli hərbi bazanın Ermənistandan çıxarılması məsələsi gündəmə gələcək. Əgər Rusiya Ermənistandan çıxarsa, bütövlükdə Cənubi Qafqazdan tamamilə sıxışdırılıb çıxarılacaq. Çünki Cənubi Qafqazda Rusiyanın yeganə hərbi varlığı yalnız Ermənistan-

### Rusiya Cənubi Qafqazdan tam sıxışdırıla bilər

dadır. O baxımdan Ermənistan–Avropa İttifaqı əməkdaşlığı münasibətlərinə Rusiya çox həssas və qəzəbli yanaşır. Ermənistan–Azərbaycan normallaşması prosesi isə əsasən ötən ilin avqust ayından başlayıb. Avqustun 8-də Vaşinqtonda sülh prosesi ilə bağlı sülh sənədi paraflandı və hər iki dövlətin prezidenti ABŞ Prezidentinin zəmanəti ilə birgə bəyannamə imzaladı. Ardınca kommunikasiyaların açılması ilə bağlı və Zəngəzur dəhlizi, “Tramp marşrutu” hüquqi çərçivəyə salındı. Doğrudur, bunlar ilkin addımlardır və bu addımları möhkəmlətmək üçün Azərbaycan birtərəfli qaydada Ermənistana olan blokadanı, yəni nəqliyyat-kommunikasiya əlaqələrinin bloklanmasını aradan qaldırdı. Bu, çox ciddi praktik addım idi və hiss olunurdu ki, bunun davamı gələcək. Artıq bu blokada qaldırılandan sonra Azərbaycandan keçən qatarlar Ermənistana gedə bilir. Ermənistan üçün həyati vacib məhsullar rahatlıqla daşına bilir”.

**Analitik bildirib ki, Azərbaycanla Ermənistan arasında artıq ticarət də tədricən formalaşır:** ”Məhz Azərbaycanın atdığı addımlar kontekstində, dünyada mövcud olan indiki neft böhranı və yanacaqların dəhşətli dərəcədə bahalaşması fonunda Ermənistanda qiymətlər minimaldır və bunu Ermənistan rəhbərliyi də təsdiqləyir. Yəni, bu praktik addımlarla paraflanmış sülh sənədi daha da möhkəmlənir və praktik sülhün bərqərar olmasına töhfə verir. Bu gün artıq qarşılıqlı olaraq dövlət məmurları Ermənistana və Azərbaycana gedib-gələ bilir. Həmçinin qeyri-hökumət təşkilatları qarşılıqlı səfərlər həyata keçirir və bir çox strateji məsələləri müzakirə edirlər. O cümlədən erməni siyasətşünasının iddia etdiyi kimi, artıq Ermənistan paytaxtında azərbaycanlılar çox rahat və heç bir qoruyucu olmadan gəzə bilirlər. Mənə elə gəlir ki, bu, ən ciddi praktik göstəricidir. Ancaq bu hələ tam hüquqi təminat deyil. Çünki irəlidə, iyunun 7-də parlament seçkiləri keçiriləcək və Azərbaycan–Ermənistan münasibətlərinin gələcəyi də bu parlament seçkilərinin nəticələrindən asılı olacaq. Bu qeyri-müəyyənliyə görə Azərbaycan daha böyük hüquqi təminat tələb edir ki, bu da Ermənistan Konstitusiyasında, yəni preambulada və Müstəqillik Bəyannaməsində qeyd edilən Azərbaycana qarşı ərazi iddiasının tamamilə aradan qaldırılmasıdır. Bu olduğu təqdirdə artıq Azərbaycanla Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanmasına bütün əngəllər aradan qalxacaq. Sonrakı mərhələdə isə artıq beynəlxalq münasibətlər çərçivəsində əlaqələr qurulacaq, hər iki dövlətdə qarşılıqlı diplomatik missiyalar açılacaq. Doğrudur, buna bir az məsafə var, ən azından bir neçə aylıq zaman tələb olunur. Çünki əgər xalq sülhə səs verəcəksə, onda Nikol Paşinyan hökuməti qurmaq mandatı alacaq. Bu da sülhün önünü növbəti dəfə açacaq”.

**Nihat Müzəffər**



# Paşinyanın açıqlamaları yeni bir müharibə hazırlığını göstərmir

## Ermənistandakı hökumətin və ictimaiyyətin normallaşma prosesini dəstəklədiyi də unudulmamalıdır

**Beynəlxalq münasibətlər sistemində baş verən dəyişikliklər Cənubi Qafqaz regionunda da yeni siyasi və təhlükəsizlik reallıqları formalaşdırıb. Bölgədə güc balansının dəyişməsi, böyük dövlətlərin prioritetlərinin yenilənməsi və regional aktorların yeni tərəfdaşlıqlara yönəlməsi əvvəlki təhlükəsizlik yanaşmalarını zəiflədib.**

Bu şəraitdə dövlətlər həm mövcud risklərə uyğunlaşmağa, həm də gələcək ehtimallara qarşı yeni strateji istiqamətlər müəyyən etməyə çalışırlar. Xüsusilə regionda baş verən son proseslər Ermənistanın xarici siyasətində və təhlükəsizlik yanaşmasında mühüm dəyişikliklərin ortaya çıxmasına səbəb olub.

Hadisələrin fonunda Ermənistan baş nazirinin də açıqlamaları diqqət çəkir. Belə ki, Paşinyan deyib ki, mayın 28-nə planlaşdırılan hərbi parad zamanı Fransa Prezidenti Emmanuel Makronun Ermənistana göstərdiyi dəstəyi hər kəs görəcək.

**Xarici siyasət və Cənubi Qafqaz üzrə tədqiqatçı Tuna Tanman ”Şərq”ə bildirib ki, Ermənistan, 2020-ci il Qarabağ müharibəsi və 2023-cü ildə Azərbaycanın Qarabağı yenidən nəzarət altına alması ilə birlikdə, Rusiyaya söykənmək üzərində qurduğu təhlükəsizlik siyasətini dəyişmək məcburiyyətində qaldı:** ”Bu vəziyyətin yeganə səbəbi Rusiyanın bölgəyə baxışındakı dəyişiklik deyildi. Eyni zamanda Ukrayna müharibəsi səbəbilə Moskva başqa sahələrə fokuslana biləcək imkan və intensivliyini də itirdi.

**“Günümüzün geosiyasi balansı və böyük dövlətlərin bölgədə apardığı güc siyasətinin mövcud istiqaməti, Azərbaycan ilə Ermənistan arasında gərginliyin yenidən yüksəlməsinə asanlıqla imkan verməyəcək”**

Bu mənzərə Ermənistanı yeni təhlükəsizlik axtarışlarına yönəltdi və Fransa ilə yaxınlaşma cəhdlərini sürətləndirdi. Daha əvvəl iki ölkə arasındakı münasibətlər böyük ölçüdə simpatiya və diaspora bağları üzərindən formalaşırdı. Lakin bölgədəki inkişaflar, Fransanın dominant olduğu təsir sahələrində güc itirməyə başlaması, yeni təsir dairələri axtarması, münasibətləri təhlükəsizlik və strateji tərəfdaşlıq müstəvisinə daşıdı.

Paşinyanın “Fransanın Ermənistana dəstəyini 28 mayda keçirilməsi planlaşdırılan hərbi keçiddə görəcəksiniz” şəklindəki açıqlaması da yeni formalaşdırılan təhlükəsizlik oxunun nəticələri ilə bağlıdır. Bu açıqlamalar Fransanın Ermənistan ordusunu modernləşdirmək məqsədilə müdafiə sənayesi əməkdaşlığına getdiyini və ya gedəcəyini göstərir”.

**Analitik qeyd edib ki, bu vəziyyət ilk baxışda Ermənistanın ordusunu modernləşdirmə cəhdlərinin Azərbaycan ilə yeni bir təhlükəsizlik dilemması yaradıb-yaratmayacağı sualını gündəmə gətirir:** ”İki ölkə arasında keçmişdə təhlükəsizlik dilemması mütəmadi şəkildə yaşanıb. Lakin günümüzün geosiyasi balansı və böyük dövlətlərin bölgədə apardığı güc siyasətinin mövcud istiqaməti, Azərbaycan ilə Ermənistan arasında gərginliyin yenidən yüksəlməsinə asanlıqla imkan verməyəcək.

Bundan əlavə, Ermənistandakı hökumətin və ictimaiyyətin normallaşma prosesini dəstəklədiyi də unudulmamalıdır. Bu səbəbdən Paşinyanın açıqlamaları yeni bir müharibəyə hazırlıq görüldüyünü göstərmir.

Sözügedən hazırlıq yalnız geosiyasi balansların və böyük dövlətlərin gündəminin dəyişməsi ehtimalına qarşı həyata keçirilir. Ermənistanın mövcud siyasi və ictimai quruluşu nəzərə alındıqda, bu ehtimal aşağı görünür”.

**Banuçiçək**

# Kartdan karta köçürmələrdə komissiya qalmaqalı

## Əkrəm Həsənov: “Mərkəzi Bank tariflərə qarışa bilmir, dəyişiklik üçün qanun lazımdır”



**Kartdan karta köçürmələr zamanı bankların komissiya haqqı tutması və tutulan komissiyanın da köçürmənin məbləğinə görə dəyişməsi vətəndaşları narahat edir. Məsələn, sosial şəbəkədə belə qeydlərə rast gəlinir ki, Azərbaycanda pul köçürmələri servis haqqı, köçürdüyün pulun məbləğindən asılıdır. Nyə? Dünyada, SWIFT sistemində belə bir şey yoxdur.**

Bir məbləğ var, məsələn, 25 usd və bütün köçürmələrə, məbləğindən asılı olmayaraq şamil olur. Bizim banklar isə köçürülən pula ”şərik çıxırlar”. Şimal qonşumuz Rusiyada bu sistem fərqli çalışır. Rusiyada SPB sistemi belədir ki, fiziki şəxslər bir nömrəyə bağlı olan müxtəlif bank hesablarından digər bank kartına 30 milyon rubla (675.000 azn) kimi komissiyasız köçürdə bilirlər. Digər yad şəxsləri isə aylıq 100 min rubl (2200 azn) komissiyasız köçürə bilirlər. Bizdə isə tam bir xaosdur bu barədə və bu biabırçılığa Mərkəzi Bank əl gəzdirməlidir.

Bu sistem Azərbaycanda da tətbiq edilə bilər. Banklar rəsmən soyğunçuluq edirlər, Mərkəzi Bank isə susur.

**İqtisadçı Əkrəm Həsənov ”Şərq”ə açıqlamasında bildirdi ki, Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımovun dünən 14 ekspertlə 3 saatdan çox davam edən ənənəvi rüblük görüşü olub. Görüşdə inflyasiya göstəricisi, bankların kredit faizləri və komissiya haqları, habelə təmərküzləşmə və sağlam rəqabət, manatın məzənnəsi və bank sisteminin sabitliyi müzakirə olunub:**

- Kartdan karta köçürmələrdə banklar tərəfindən komissiya tutulması məsələsi isə Mərkəzi Bankın səlahiyyətində deyil. Mərkəzi Bank bankların tarif siyasətinə qarışa bilməz. Bunun üçün Qanun qəbul olunmalıdır.

**Məlahət Rzayeva**



# Müəllimin nüfuzu zəifləyib, məktəbdə gərginlik artır

## **Sosioloq Naib Niftəliyev:** “Tərbiyə böhranı dərinləşir - səbəb təkcə şagirdlər deyil. Aqressiya iki tərəfdəndir”



**Son günlər yeniyetmələrlə bağlı problemlərə nəzər saldıqla bütün oxlar təhsil ocağını göstərir. Bir tərəfdən gənclər arasında zorakılıq halları artıb, digər tərəfdən isə təhsilin keyfiyyəti gözlə görünəcək dərəcədə aşağı düşüb. Məktəbdə sinif yoldaşları arasında bıçaqlanma hadisələri baş alıb gedir. Sanki dərsə getməzdən öncə hansı mövzunu oxuyacaqlarını deyil, kimə zərər verəcəklərini düşünürlər.**

Aprelin 23-də məktəblərin birində VII sinif şagirdi yoldaşları ucbatından özünü kəsici alətlə yaralamaq istəyib. Məlum olub ki, yoldaşları onu videolarını çəkib yayımlamaqla şantaj ediblər. Bir vaxtlar valideynlər övladlarını məktəbə göndərərkən yalnız təhsilini düşünürdülər. Bu gün isə əsas qayğıları onların təhlükəsiz şəkildə evə qayıdıb-qayıtmayacağıdır. Problemin dərinliyi elm və təhsil naziri Emin Əmrullayevin də diqqət mərkəzinə çevrilib. O, qarşıda duran ən çətin məqsədlərdən birinin tərbiyə və dəyərin formalaşdırılması olduğunu açıqlayıb.

**Mövzu ilə bağlı sosioloq Naib Niftəliyev ”Şərq”ə bildirib ki, məktəblərin əsas vəzifələrindən biri pedaqoji, mənəvi-psixoloji və fiziki tərbiyənin düzgün təşkili və həyata keçirilməsidir:** “Məktəblərdə gənclər arasında tərbiyədənkənar və qeyri-qanuni hərəkətlərin artmasının həm obyektiv, həm də subyektiv səbəbləri var. Problem ondadır ki, bir tərəfdən müəllimin nüfuzunu aşağı salıb, ona müxtəlif cərimələr tətbiq edirik, digər tərəfdən isə ondan ciddi tərbiyə işi və yüksək tələbkarlıq gözləyirik. İki yanaşmanı eyni anda uzlaşdırmaq olduqca çətindir. Müəllim üzərində qurulan nəzarət mexanizmi şəffaf olmalıdır. O, fəaliyyətinə nəzarət edildiyini bilməli, lakin bu nəzarətin psixoloji təzyiqini hiss etməməlidir. Müəllimin cəmiyyətdə hörmət görməsi, özünü dəyərli hiss etməsi və psixoloji durumu şagirdlə davranışına təsir göstərir”.

**Sosioloqun sözlərinə görə, gənclərin formalaşmasında valideynlərin də məsuliyyət payı böyükdür:** “Uşaq yaşlarından, məktəb dövründə etikadan kənar davranışları norma kimi qəbul edən valideynlərin övladlarına aşıladığı dəyərlər də yanlış davranışların formalaşmasına səbəb olur. Bu cür düşüncəyə malik valideynlərin çoxluğu məktəblərdə aparılan tərbiyəvi işin vəziyyətinə mənfi təsir göstərir. Hər bir yeniyetmə valideynlərinin yanlış davranışlarını norma kimi qəbul edib, mənimsəyir. Yanlış davranışların daşıyıcısına çevrilən gənclər bunu məktəb mühitində nümayiş etdirməyə başlayırlar. Bıçaqlanma hadisələri və sinif yoldaşının video və fotolar ilə şantaj etmək təhsil sistemindəki boşluqlardan xəbər verir. Tərbiyəvi problemin nazir tərəfindən etiraf edilməsi, çatışmazlığın gözləniləndən daha ciddi olduğunu göstərir”.

**N.Niftəliyev qeyd edib ki, məktəblərdə tərbiyə və dəyərlərin formalaşdırılması üçün bir neçə istiqamətdə işlər görülə bilər:** “Hazırda məktəblərdə baş alıb gedən lüzumsuz halların sosioloji təhlili və buna uyğun tədbirlər planının hazırlanması istiqamətində işlər görülür. Qeyri-hökumət təşkilatlarından birinin dəstəyi əsasında, təhsil sistemindəki problemlərlə bağlı 6 məktəbə pilot layihəsi çərçivəsində sorğu keçirildi. 6-11-ci sinifləri əhatə edən sorğuda bir çox faktlar ortaya çıxdı. Şagirdlər əsasən müəllimlərin sərt və qəddar davranışlarından, cəzalandırma və təhqir hallarından narazı olduqlarını bildiriblər. Təbii ki, müəllimin sərt reaksiyasına, şagird tərəfindən verilən cavab da kəskin olacaq. Hər iki tərəfin aqressiv davranışı təhsil sistemindəki problemləri dərinləşdirir. Lakin çətinliklərin həlli istiqamətində nümunəvi modellərə istinad etməklə, müəyyən təşəbbüslərin həyata keçirilməsi mümkündür”.

**Aybəniz Səfərova**

# Zaxarovanın açıqlaması Putinin mesajıdır

## Rusiya Paşinyana açıq xəbər verir ki, qarşıdakı ay həlledici olacaq



**Ukrayna Prezidenti Volodimir Zelenskinin Ermənistana səfəri və İrəvanda verdiyi mesajlar Rusiya-Ermənistan münasibətlərində onsuz da mövcud olan gərginliyi daha da artırıb. Son aylarda Paşinyan hakimiyyətinin Qərblə, xüsusilə Avropa İttifaqı ilə yaxınlaşma siyasəti Moskvanın narazılığına səbəb olurdu. Lakin Zelenskinin İrəvanda yüksək səviyyədə qarşılanması və burada Rusiyaya qarşı sərt mesajlar verməsi Kreml tərəfindən artıq siyasi jestdən daha çox, geosiyasi seçim kimi qəbul edilir. Məhz buna görə də Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın açıqlamaları adi diplomatik reaksiya yox, həm Ermənistan hakimiyyətinə, həm də erməni cəmiyyətinə ünvanlanan ciddi xəbərdarlıq təsiri bağışlayır.**

Zaxarova bəyanatında Rusiyanın Ermənistanın Zelenskiyə “tribuna verməsini” unutmayacağını vurğulayaraq, İrəvanın kimə dəstək verdiyini Rusiya cəmiyyətinin diqqətlə izlədiyini bildirib. O, Zelenskinin Ermənistanda “çox səmimi qarşılandığını” qeyd edib və bunun Rusiya ictimaiyyətində “qəzəb və anlaşılmazlıq” yaratdığını deyib. Kremlin sözçüsü bununla kifayətlənməyərək, Zelenskinin İrəvana səfərinin Ermənistan üçün Avropa İttifaqının hazırladığı gələcəyin nümunəsi olduğunu iddia edib. Onun fikrincə, Ukraynanın düşdüyü vəziyyət Qərbin “gənc demokratiyalar” siyasətinin nəticəsidir və Ermənistan da eyni istiqamətə sürüklənir.

Rusiya tərəfi xüsusilə Zelenskinin Moskvaya qarşı səsləndirdiyi mesajların İrəvanda cavabsız qalmasını vurğulayır. Zaxarova qeyd edib ki, Ukrayna Prezidenti mayın 9-da Moskvaya PUA hücumlarından danışarkən Ermənistan rəhbərliyi buna reaksiya verməyib. Bu detal Moskvanın İrəvana yönəlik narazılığının təkcə diplomatik deyil, həm də təhlükəsizlik müstəvisinə keçdiyini göstərir. Kreml artıq Ermənistanın Qərbə inteqrasiyasını Rusiyanın regional maraqları və təhlükəsizlik arxitekturası üçün risk hesab edir.

**AĞ Partiya sözçüsü, siyasi şərhçi Cavanşir Abbaslı “Şərq”ə bildirib ki, Rusiya-Ermənistan münasibətlərində yeni gərginliyin yaşandığı son günlərdə bir daha üzə çıxdı:** ”Həmin günlərdə Zelenskinin İrəvana səfər etməsi, orada çıxış etməsi, çıxışında çox ciddi nüanslara toxunması, eyni zamanda Rusiyanı hədəf götürməsi, təbii ki, Putin hakimiyyəti tərəfindən həssas qarşılanmaya bilməzdi. Onun üçün də bu nöqteyi-nəzərdən çıxış etsək, Zaxarovanın açıqlamalarını təbii qəbul etmək lazımdır. Hər halda Zaxarova da özü tərəfindən müstəqil şəkildə qərar verib bu cür fikirlər səsləndirmir. O, bir növ Putinin hədələrini Paşinyana və İrəvana çatdırır. Hesab edirəm ki, bu açıqlamalar kifayət qədər ciddidir, hədələrlə doludur, çox sərt tonda olan bir çıxışdır. Ümumiyyətlə, son dönəmlərdə bu cür çıxış Rusiya tərəfindən Ermənistana yönəlik edilməmişdi. Onun üçün də qarşıdakı bir ayın Ermənistan üçün çox çətin keçəcəyini düşünürəm. Gələn ayın 7-də bilirsiniz ki, Ermənistanda parlament seçkiləri keçiriləcək. Bununla da, erməni cəmiyyəti Paşinyanla davammı deyəcək, yoxsa onun rəqiblərindən biri ilə davammı edəcək qərarı verəcək. Çünki bilirsiniz ki, onun rəqibləri artıq məlumdur və onların içərisində təbii ki, Köçəryan və Karapetyanın şansları kifayət qədər yüksək göstərilir. Bu namizədlər Rusiyanın birbaşa dəstəklədiyi namizədlər kimi qəbul edilir. Onun üçün də seçki Paşinyan üçün çətin keçəcək”.

**Analitik qeyd edib ki, Rusiya Ermənistan cəmiyyətinə çatdırır ki, Paşinyanla davam edəcəksinizsə, sonunuzun nə olacağını indidən düşünün:** ”Hesab edirəm ki, bu da kifayət qədər sərt ruhdadır. Son olaraq da bu gün Paşinyanın qələbə paradında iştirak etməyəcəyini açıqlaması da son nöqtədir. Zatən bəlli idi ki, həmin vaxt Ermənistanda seçki prosesi qızışır və həmin gün Paşinyan qərarını verə bilərdi. Amma gözlədi, yüz ölçdü, bir biçdi və bu gün nəhayət, qələbə paradında iştirak etməyəcəyini açıqladı. Düşünürəm ki, bu qərar da Kremldə ciddi qəzəbə səbəb olub. Məhz Zaxarovanın çıxışı həm də Paşinyanın verdiyi bu imtina cavabından qaynaqlanır”.

**Nihat Müzəffər**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği:

# Azərbaycan 30 illik münaqişəni milli birliklə həll etdi

## Elman Məmmədov: "Heydər Əliyev Azərbaycan dövlətçiliyinin və milli birliyin memarıdır"

**Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi və milli-mənəvi dəyərlərin qorunması istiqamətində misilsiz xidmətlər göstərmiş siyasi liderdir. Onun formalaşdırdığı azərbaycançılıq ideyası milli birliyin, vətənpərvərliyin və müstəqil dövlətçilik düşüncəsinin əsas ideoloji dayaqlarından birinə çevrilib. 10 May – Heydər Əliyevin anım günü münasibətilə Ulu Öndərin xalqın milli kimliyinin qorunması, Azərbaycan dilinin inkişafı, milli həmrəyliyin gücləndirilməsi və dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsi istiqamətində gördüyü işlər bir daha dərin ehtiramla xatırlanır. Bu gün də Heydər Əliyevin azərbaycançılıq fəlsəfəsi ölkənin ictimai-siyasi həyatında mühüm rol oynayır və gələcək nəsillər üçün milli ideologiya nümunəsi olaraq qalır.**

Qeyd edək ki, azərbaycançılıq ideologiyası Azərbaycan xalqının tarixi varlığını, dilini, mədəniyyətini, milli kimliyini və dövlətçilik ənənələrini özündə birləşdirən güclü milli düşüncə sistemidir. Bu ideologiyanın dövlət səviyyəsində formalaşdırılması və möhkəmləndirilməsi prosesi isə birbaşa olaraq Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycan xalqının keçdiyi mürəkkəb tarixi yolda milli-ideoloji boşluğu doldurmaq üçün azərbaycançılığı həm milli həmrəyliyin, həm də siyasi sabitliyin aparıcı sütununa çevirib.

1969-cu ildən etibarən Azərbaycan SSR-in rəhbəri kimi fəaliyyətə başlayan Heydər Əliyev milli-mədəni dirçəlişin əsasını qoyub. O dövrdə mövcud olan sovet ideoloji çərçivəsinə baxmayaraq, Heydər Əliyev milli tariximizin, ədəbiyyatımızın, incəsənətimizin və dilimizin inkişafına şərait yaratdı. Bu, faktiki olaraq azərbaycançılıq ideyasının ilk praktik müstəvidə tətbiqidir. Hərçənd açıq şəkildə "azərbaycançılıq" termini işlədilmirdi, lakin mahiyyət etibarilə azərbaycançılığın mədəni və mənəvi əsasları formalaşırdı.

Azərbaycan xalqının milli kimliyi uzun müddət ərzində ya imperiya ideologiyasının basqısı altında boğulmuş, ya da süni şəkildə deformasiya edilmişdi. Heydər Əliyev isə bu boşluqları doldurmaq üçün milli-mənəvi dəyərlərə söykənən ideoloji çərçivə hazırladı. Bu, sadəcə siyasi idarəetmə strategiyası deyildi – bu, xalqın kimliyini qorumaq, milli qüruru dirçəltmək və milli özünüdərki bərpa etmək üçün həyata keçirilən sistemli fəaliyyətdir.

**Millət vəkili Elman Məmmədov "Şərq"ə bildirib ki, Ulu Öndər Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin banisi olmaqla yanaşı həmçinin milli birliyimizin də memarıdır:** "Müstəqilliyimizin ilk illərində xalqımızın üzləşdiyi çətinliklər, Azərbaycanın məhv olmaq təhlükəsi ilə üz-üzə qalması bütün vətəndaşlarımıza yaxşı məlumdur. Belə bir ağır dönəmdə məhz xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər xalqımızı bütün bəlalardan xilas edib. Ulu Öndərin ölkəmizə rəhbərliyinin birinci dövründə, 1969-1982-ci illərdə Azərbaycanda məhz onun rəhbərliyi ilə Azərbaycan dilinin əhəmiyyəti artmış və ana dilinə olan diqqət və qayğı, eləcə də dövlət qurumlarında azərbaycanlıların yüksək vəzifələrə gətirilməsi vacib əhəmiyyət kəsb edirdi. Yüzlərlə gəncin Sovet İttifaqının ən nüfuzlu ali təhsil müəssisələrinə göndərilməsi, böyük alim ordusunun yetişməsi, xalq təsərrüfatının dinamik inkişafı, mədəniyyətin çiçəklənməsi, təhsilin inkişaf etdirilməsi Ulu Öndərin gələcəyimizə olan inamının mahiyyətini ehtiva edirdi.



Tarixi, adət-ənənələri, milli fəlsəfi məfkurəni, təcrübəni və zəngin mədəniyyətimizin bütün çalarlarını özündə ehtiva edən azərbaycançılıq ideologiyasının müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid ideologiya ətrafında birləşdirən milli məfkurəyə çevrildi. Milli ruhun yüksəlməsi, milli özünüdərkin inkişafı və xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsip və vəzifələrə xidmət edən azərbaycançılıq məfkurəsi dövlətin qüdrətinin artırılmasında real siyasi amil oldu. Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin yaranması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk Milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz Ulu Öndər Heydər Əliyevin xidmətləridir. Ümummilli Lider Heydər Əliyevin uğurlu siyasəti sayəsində Azərbaycan dünyada tanınan nüfuzlu bir dövlətə çevrilib".

**E.Məmmədovun fikrincə, azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır:** "Azərbaycançılıq ideyası Ümummilli Lider Heydər Əliyevin ən layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir. Ötən illər ərzində Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin azərbaycançılıq məfkurəsinə sadiq qalıb və onu inkişaf etdirib. Belə ki, 1988-ci ildən Ermənistanla Azərbaycan arasında davam edən müharibə nəticəsində 20 faiz Azərbaycan torpaqlarının işğal faktını heç vaxt qəbul etməyən Azərbaycan münaqişənin birdəfəlik köklü həll olunmasını və ərazilərin işğaldan azad olunaraq köçkün və qaçqın soydaşlarımızın öz torpaqlarına geri qayıtmasını tələb kimi ortaya qoyub. Bunun nəticəsi olaraq 2020-ci ildə 44 günlük vətən müharibəsi dövründə və 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal antiterror tədbirlərində biz Azərbaycan xalqının bir an belə dayanmadan necə vahid bir gücə çevrildiyinin və böyük əzm ilə vətəndaş borcunu göstərərək Müzəffər Orduya rəhbərlik edən Cənab Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək "Dəmir Yumruğa" çevrildiyinin şahidi olduq. Məhz azərbaycançılıq ideologiyası 30 ildən bəri davam edən münaqişənin bitməsinə və Azərbaycanın qələbə çalmasına yol açdı".

Şəymən Bayramova

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Pezeşkianın Xamenei açıqlaması şübhələri daha da artırdı

## Artıq İran Prezidenti də siyasi oyunun bir hissəsinə çevrilib

**İran daxilində siyasi və iqtisadi gərginliyin artdığı bir dövrdə Prezident Pezeşkianın səsləndirdiyi bəzi açıqlamalar ciddi diqqət çəkir. Xüsusilə onun Müctəba Xamenei ilə bağlı verdiyi son mesajlar həm İran cəmiyyətində, həm də regionu izləyən siyasi dairələrdə müxtəlif suallar doğurub. Çünki uzun müddətdir Müctəba Xameneinin vəziyyəti, hakimiyyət daxilindəki real rolu və ümumiyyətlə, ictimaiyyət qarşısına çıxmaması ətrafında çoxsaylı iddialar və şayiələr dolaşır.**



**"Savalan" Araşdırmalar Mərkəzinin rəhbəri, iranlı siyasi şərhçi, GAMAC İdarə Heyətinin üzvü Sadiq İsabəyli "Şərq"ə bildirib ki, fars mediasında deyilənlərə görə, Məsud Pezeşkian bazar işçiləri ilə təsadüfi görüşündə, yəni öncədən planlaşdırılmamış bir söhbətdə, Müctəba Xamenei ilə görüşü haqqında müəyyən məlumatlar verib:** "Pezeşkian söyləyib ki, heç bir vasitəçi olmadan 2 saat yarım Müctəba Xamenei ilə söhbətləşib. Həmçinin qeyd edib ki, görüş çox səmimi atmosferdə keçib. Bundan artıq isə hər hansı əlavə bilgi verməyib. Ona görə də bu açıqlamanın özü müəyyən mənada şübhəli görünür. Son aylarda belə məlumatlar yayılmışdı ki, ümumiyyətlə, Müctəba Xamenei həyatda deyil. Hətta onun həyatda olmadığı halda dini rəhbər kimi təqdim edildiyi iddia olunurdu. Onun görüntüsü və ya səsi ilə bağlı hər hansı bir məlumatın ortaya qoyulmaması da müxtəlif cür yozulurdu. Bu məsələlərə dair müxtəlif iddialar səsləndirilirdi. O cümlədən deyilirdi ki, Sipahi-Pasdaran daxilində bəzi şəxslər Müctəba Xameneinin öldüyünü gizlədir və onun adından bəyanatlar yayırlar. Hətta hakimiyyətdaxili siyasi güc savaşlarında da belə fikirlər səslənirdi ki, müəyyən qruplar Müctəba Xameneini aradan götürüblər və ya onun öldüyü barədə məlumatı gizlədirlər. Təbii ki, qarşı tərəf də buna müxtəlif arqumentlər gətirirdi. Əsas arqument isə onun təhlükəsizliyinin xüsusi önəm daşıması idi. Bildirilirdi ki, guya, Amerika və ya İsrail kimi qüvvələr onu hədəfə ala bilər. Buna görə də onun görüntüsünün yayılması təhlükəsizlik baxımından risk hesab olunur".

**Analitikin sözlərinə görə, Məsud Pezeşkianın belə bir açıqlama verməsi göstərir ki, hakimiyyət Müctəba Xamenei ilə bağlı yayılan bütün şayiələri və iddiaları aradan qaldırmağa çalışır:** "Ümumiyyətlə, İran hakimiyyətinin səsləndirdiyi fikirlər və açıqlamalar bir çox insanlar üçün inandırıcı görünmür. Təkcə vətəndaşlar deyil, dünyanın müxtəlif dövlətləri də onların açıqlamalarına şübhə ilə yanaşırlar. Çünki hakimiyyətin tez-tez yalan danışdığı düşünülür.

Amma Məsud Pezeşkian haqqında daxildə müəyyən bir imic formalaşıb. Belə hesab olunur ki, o, ən azı indiyə qədər yalan danışan siyasətçi kimi tanınmayıb və yalanı sevməyən biri kimi təqdim olunub.

Bu baxımdan, onun adından belə bir görüşün keçirildiyinin açıqlanması xüsusi diqqət çəkir. Üstəlik, bunun guya təsadüfi bir görüşdə, iş adamları ilə söhbət zamanı dilə gətirilməsi ayrıca mesaj kimi görünür. Yəni "mən onunla vasitəsiz şəkildə 2 saat yarım danışdım, çox səmimi atmosfer oldu" kimi ifadələrlə cəmiyyətə müəyyən mesaj verilməyə çalışılır.

Bununla hakimiyyət insanları inandırmaq istəyir ki, Müctəba Xamenei ilə bağlı yayılan məlumatlar saxtadır və bütün deyilənlər şayiədir. Həmçinin göstərmək istəyirlər ki, onun hakimiyyətin idarə olunmasında rolunun olmadığı barədə deyilənlər də doğru deyil. Bu şəkildə öz iddialarını arqumentləşdirməyə çalışırlar. Yəni guya Müctəba Xamenei həyatda və sağlamdır, proseslərə nəzarət edir və hakimiyyət mexanizmi əvvəlki kimi fəaliyyət göstərir".

**Siyasi şərhçi qeyd edib ki, bu mesaj eyni zamanda həm vətəndaşlara, həm də hakimiyyət daxilində siyasi mübarizə aparan qruplara yönəlmiş görünür:** "Məqsəd budur ki, hər kəs başa düşsün: sistem vahid mexanizm əsasında idarə olunur və bütün proseslərə Müctəba Xamenei nəzarət edir.

Məhz buna görə də Məsud Pezeşkianın belə qısa, amma həssas məqamda verdiyi açıqlama diqqət çəkir. Görünür ki, bu açıqlama əvvəlcədən düşünülmüş şəkildə onun üzərindən cəmiyyətə çatdırılıb. Ancaq bunun nə qədər doğru olduğu yenə də şübhəlidir. Çünki görüşdən hər hansı foto, video və ya başqa sübut paylaşılmayıb. Bu isə şübhələri aradan qaldırmır.

Belə vəziyyətdə artıq Məsud Pezeşkianın nə dərəcədə doğru danışdığı da sual altına düşür. Çünki fars şiə siyasi düşüncəsində "məsləhət üçün yalan danışmaq olar" kimi yanaşmaların mövcud olduğu da tez-tez qeyd edilir.

Bu baxımdan mümkündür ki, o da belə "məsləhətli yalan"lardan birini danışmış olsun.

İranda rialın dəyəri sürətlə aşağı düşür. İqtisadi və sosial vəziyyət olduqca ağırlaşır. Yaxın aylarda daha ciddi böhranlardan danışmaq mümkündür. Bu böhranlar elə səviyyəyə çata bilər ki, yenidən kütləvi ictimai etirazlar baş qaldırsın. Bu səbəbdən hakimiyyət cəmiyyəti nəzarətdə saxlamaq üçün müxtəlif üsullardan və siyasi manipulyasiyalardan istifadə edə bilər".

**Müsahibimiz Məsud Pezeşkianın da bu siyasi oyunun bir hissəsinə çevrildiyini deyib:** "Pezeşkian artıq seçicilərinə açıq və tam doğrular danışmır. Ən azı hazırkı vəziyyətdə sübut təqdim etmədən danışması belə bir təsəvvür yaradır.

Hakimiyyətin gözləntisi isə budur ki, insanlar bu həssas dönəmdə onun sözlərinə inansın və açıqlamalarını doğru qəbul etsin.

Məncə, bu açıqlama ətrafında hələ çox müzakirələr olacaq. Çünki ortada nə görüntü var, nə səs yazısı, nə də başqa sübut.

Əgər sonradan məlum olsa ki, bu məsələ həqiqətən də uydurulmuş və ya manipulyativ xarakter daşıyır, o zaman bu, Məsud Pezeşkianın gələcəkdəki bütün açıqlamalarını ciddi şəkildə sual altına salacaq. Vətəndaşların ona qarşı qalan az miqdarda etimadı da tamamilə itəcək".

Banuçiçək

**Azərbaycan Mərkəzi Bankının açıqladığı son proqnozlar ölkədə inflyasiyanın yaxın illərdə nəzarət altında saxlanılacağını göstərsə də, qlobal iqtisadi proseslərin təsiri bu sahədə risklərin qalmaqda davam etdiyini ortaya qoyur. Azərbaycan Mərkəzi Bankından verilən məlumatda bildirilib**




# İnflyasiya ilə mübarizədə Mərkəzi Bankın əlləri bağlıdır

## Xarici şoklar Azərbaycanın iqtisadi planını poza bilər

**ki, baza senarisinə əsasən, cari və növbəti ildə illik inflyasiyanın hədəf daxilində olacağı proqnozlaşdırılır.**

Qeyd edilib ki, AMB-nin baza senarisi üzrə may proqnozlarına görə illik inflyasiyanın 2026-cı ildə 5.9 faiz, 2027-ci ildə isə 4.5 faiz olacağı gözlənilir.

İnflyasiya proqnozunun artma istiqamətində dəyişdirilməsi əsasən xarici mənşəli xərc amillərinin fəallaşmasından irəli gəlir. Bu amillərə qlobal ərzaq qiymətlərinin artım tempinin yüksəlməsi, ticarət tərəfdaşlarında inflyasiya təzyiqlərinin aktivləşməsi və nominal effektiv məzənnənin möhkəmlənmə tempinin səngiməsi aiddir. Tələb amillərinin fevral proqnozu ilə müqayisədə zəifləməsi təklif amillərinin inflyasiyaya artırıcı təsirini qismən neytrallaşdırıb. Ümumilikdə, may proqnozuna görə, inflyasiyanın əhəmiyyətli hissəsinin təklif amilləri hesabına formalaşacağı gözlənilir.

Geosiyasi gərginliklər və təchizat zəncirlərində yaranan çətinliklər də inflyasiya risklərini artıran mühüm amillər sırasında yer alıb. Vurğulanıb ki, ötən iclasdan bəri artan geosiyasi gərginlik inflyasiyanın risklər balansında xarici amillərin rolunu yüksəldib. Yaxın Şərqdə baş verən münaqişə təchizat zəncirlərində maneələr yaratmaqla nəqliyyat və sığorta xərclərinin yüksəlməsinə, eyni zamanda qlobal enerji bazarlarında artan istiqamətdə qiymət dəyişkənliyinin güclənməsinə səbəb olub.

**Liberal İqtisadçılar Mərkəzinin sədri, iqtisadçı Akif Nəsirli "Şərq"ə bildirib ki, AMB-nin 2026 üçün 5.9 faiz, 2027 üçün isə 4.5 faiz proqnozu texniki baxımdan mümkündür, lakin bir neçə ciddi şərtə bağlıdır. Onun fikrincə, Azərbaycan manatı dollara sabitlənmiş valyuta rejiminə (peg) əsaslandığından, AMB-nin pul siyasəti alətləri məhdududur, faiz dəyişiklikləri klassik bazarlardakı qədər effektiv işləmir:** "5.9 faizlik rəqəm AMB-nin hədəf diapazonunun yuxarı həddinə yaxındır, bu isə o deməkdir ki, hər hansı xarici şok, məsələn, neft qiymətlərinin düşməsi, idxal qiymətlərinin artması və ya tərəf-müqabillərin valyutalarının ucuzlaşması proqnozu hədəfdən kənara çıxara bilər. 2027 üçün 4.5 faiz isə daha optimist senaridir və o il ərzində qlobal əmtəə bazarlarında sabitləşmə olacağını fərz edir. Ümumiyyətlə, bu rəqəmlər idarə olunan gözləntidir, zəmanət deyil. İnflyasiyanın xarici mənşəli xərc amilləri ilə, yəni idxal qiymətlərinin artması, qlobal ərzaq və enerji bahalaşması ilə izah olunması AMB-ni çətin vəziyyətə qoyur. Çünki bu növ inflyasiyanı pul siyasəti vasitəsilə söndürmək üçün ya tələbi kəskin şəkildə boğmaq, ya da valyuta kursunu möhkəmləndirmək lazım gəlir. Birinci yol iqtisadi artıma zərər verir, ikincisi isə ixrac rəqabətliliyini zəiflədir. Buna görə də AMB-nin real vasitələri daha çox dolayı xarakter daşıyır. Bank faiz dərəcələri vasitəsilə kredit genişlənməsini ləngidə, ehtiyat tələblərini artıraraq bankların pul yaratma həcmini məhdudlaşdıra, açıq bazar əməliyyatları ilə likvidliyi sterilizasiya edə bilər. Bunlarla yanaşı, valyuta ehtiyatlarından istifadə edərək manata olan təzyiqi azalda, idxal olunan inflyasiyanın ötürülmə effektini zəiflədə bilər".

**İqtisadçı qeyd edib ki, bütün bu addımların effektivliyi Azərbaycan iqtisadiyyatının strukturundan asılıdır:** "İqtisadiyyatın neft gəlirlərinə güclü bağımlılığı, daxili istehsalın məhdudluğu və idxalın yüksək payı şəraitində Mərkəzi Bank inflyasiyanı tam neytrallaşdırmaqdan daha çox onu "idarəolunan diapazon"da saxlamağa çalışır. Bu isə proqnozların texniki dəqiqliyindən çox siyasi inam yaratmaq funksiyası daşıdığını göstərir".

Şəymən

# Müstəqillik ruhu küçə adlarında əks olunmalıdır

## Bakıda sovet adları mərhələli şəkildə tarixə qovuşur




**Azərbaycanda sovet dövründən miras qalan küçə, qəsəbə və yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi məsələsi yenidən gündəmə gəlib. Milli Məclisin Regional məsələlər komitəsinin iclasında deputatlar hələ də cəmiyyətdə "Kirov", "Orconikidze", "Jdanov", "Montin", "Varovski" və "Razin" kimi sovet ideologiyasını əks etdirən adların işlədildiyini bildirərək, bunun milli yaddaş və toponimika siyasəti baxımından ciddi məsələ olduğunu vurğulayıblar.**

**Deputat Aydın Mirzəzadə təəssüflə hələ də bu adlara rast gəldiyini deyib:** "Bəzən insanlarımız "Xutora" gedirik deyir. Bir dəfə cavan oğlan "nol əlli" dedi, az qaldım ki, maşını saxlayıb deyim ki, sən niyə elə deyirsən axı? Bu, sıfır əllidir. Ona görə də bizim insanlarımız bu məsələdə daha diqqətli olmalıdır".

**Deputat Vasif Qafarov isə deyib ki, milli dəyərlərimizin qorunmasına və tarixi ədalətin bərpasına xidmət edən yanaşma, toponimiya siyasəti ölkəmizin digər ərazilərində də ardıcıl şəkildə davam etdirilməlidir. O bildirib ki, bolşevik adlarını daşıyan küçələrin adlarının dəyişdirilməsi məsələsinə yenidən baxılmasını və həmin adların Azərbaycan tarixini, görkəmli şəxsiyyətlərini və milli dəyərlərini əks etdirən adlarla əvəz olunması daha məqsədəuyğundur:** "Bu yanaşma həm tarixi yaddaşımızın bərpasına, həm də gələcək nəsillərin milli ruhda formalaşmasına töhfə verəcək. Azərbaycanın bir çox rayonlarında, o cümlədən təmsil etdiyim Lerik rayonunda bəzi kəndlərin adları keçən əsrdə rus dilində tərtib olunan dövlət reyestrlərində yanlış qeyd olunub. Kəndlərin adları qeyd olunarkən bir və ya bir neçə hərf səhvi edilib, nəticədə həmin adlar heç bir toponomik məna daşımayan bir hala gəlib. Müstəqillik dövründə də həmin reyestrlər əsas istinad mənbəyi kimi götürüldüyündən bu yanlışlıqlar təkrar olunub. Yaxşı olardı ki, bu məsələ də diqqətdə saxlanılsın, yerli qurumlar və bələdiyyələr bu yanlışlıqların aradan qaldırılması təşəbbüsü ilə çıxış etsinlər və bu məsələ də öz həllini tapsın. Son iki yüz ildə yad təsirlərə məruz qalmış toponimlərimizin milliləşdirilməsi prosesi sistemli və davamlı xarakter daşımalı, bu istiqamətdə həm regionlarda, həm də paytaxtda ardıcıl və məqsədyönlü addımlar atılmalıdır".

### Küçə adlarında milli yaddaşın gücləndirilməsi prosesi sürətlənir

**Sosial-Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyinin sədri İlqar Hüseynli "Şərq"ə açıqlamasında bildirib ki, Azərbaycanda sovet dövründən qalma küçə və yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi prosesi artıq uzun illərdir mərhələli şəkildə həyata keçirilir və ölkə böyük ölçüdə sovet ideoloji mirasından uzaqlaşıb. Onun sözlərinə görə, paytaxt Bakıda və digər bölgələrdə bir çox küçə adları milliləşdirilib, lakin gözdənqaçan yerlər olduğu üçün bu istiqamətdə işlər davam etdirilməlidir:** Əvvəla, onu deyim ki, dünyanın müxtəlif ölkələrində Nizami Gəncəvi və Füzuli kimi dahilərimizin adları qorunub saxlanılır. Eyni zamanda Bakıda dünya ədəbiyyatına mühüm töhfələr vermiş Aleksandr Puşkin, Mixail Lermontov, eləcə də beynəlxalq miqyasda tanınan Mstislav Rostropoviç kimi şəxslərin adlarını daşıyan küçələr var. Bu adlar ideoloji yox, daha çox ümumbəşəri və mədəni dəyərlər kontekstində qiymətləndirilir".

**44 günlük Vətən müharibəsindən sonra şəhidlərin adlarının küçə və yaşayış məntəqələrində əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atıldığını xatırladan İ.Hüseynli qeyd edib ki, bu prosesdə ictimai mövqe və vətəndaş təşəbbüsü xüsusi əhəmiyyət daşıyır:** "Bəzən sovet dövründə yaşamış və həmin sistemdə fəaliyyət göstərmiş şəxslərlə bağlı cəmiyyətdə fərqli münasibətlər mövcud olur, onların müəyyən xidmətləri də nəzərə alınır. Ancaq düşünürəm ki, küçə adları daha çox müstəqillik dövrünün ruhuna və milli dəyərlərə uyğun müəyyənləşdirilməlidir. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizə aparmış insanların, xüsusilə Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin adlarının əbədiləşdirilməsi prioritet olmalıdır. Bu, həm milli yaddaşın möhkəmlənməsinə, həm də gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasına xidmət edər.

Adıkeçən ərazilərdə yaşayan sakinlər arasında sorğu aparsaq, görərik ki, onların əksəriyyəti nə adın dəyişdirilməsi, nə də məhəllədə şəhid adının verilməsi ilə bağlı təşəbbüs göstərib. Fikrimcə, bu adlar dəyişdirilməli və yenilənməlidir. Azərbaycanın Birinci və İkinci Qarabağ müharibələrində şəhid olmuş çoxsaylı qəhrəmanları var ki, onların adları mütləq şəkildə əbədiləşdirilməlidir."

**Şəymən**




# Vətəndaşlara daha geniş seçim azadlığı veriləcək

## Azərbaycanda əmək haqqı və pensiya ödənişlərinin banklar vasitəsilə həyata keçirilməsində dəyişikliklər gözlənilir

**"Əmək haqqı və pensiya üzrə vətəndaşların bank seçimi imkanının təmin olunması gündəmdədir. Bu mövzunu əvvəlki görüşlərdə də qaldırmışdım. Yay aylarında məsələ həllini tapacaq: hər kəs bankını özü seçəcək".**

**Bu sözləri "Şərq"ə açıqlamasında iqtisadçı Əkrəm Həsənov Mərkəzi Bankın sədri Taleh Kazımovun ekspertlərin iştirakı ilə keçirdiyi görüşdə müzakirə olunan məsələlər barədə danışarkən deyib.**

İqtisadçı bildirib ki, Azərbaycanda əmək haqqı və pensiya ödənişlərinin banklar vasitəsilə həyata keçirilməsində dəyişikliklər gözlənilir. Dövlət büdcəsindən maliyyələşən qurumlarda əmək haqqı kartlarının bir bankla məhdudlaşmasının aradan qaldırılması və vətəndaşlara daha geniş seçim azadlığının veriləcəyi gözlənilir. Belə olduqda işçilər vəsaiti alacaqları bankı özləri seçə biləcəklər. Pensiya və müavinətlərin alınmasında da vətəndaşların bank seçimində sərbəstliyin təmin edilməsi planlaşdırılır. Hazırda pensiyalar əsasən iki bank - Azərbaycan Beynəlxalq Bankı və Kapital Bank vasitəsilə ödənilir. Lakin bu prosesin sərbəstləşdirilməsi istiqamətində addımlar atılır. Yeni mexanizmin üstünlükləri budur ki, vətəndaşlar maaş və pensiyalarını öz istədikləri bankdan ala biləcəklər. Bu addım banklar arasında rəqabəti artıracaq, xidmət haqlarına və komissiyalara təsir göstərəcək. Bu islahatlar Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası çərçivəsində həyata keçirilir.

**Məlahət**

# Süni intellektin ikiüzlü gücü

## **Cengiz Çalıkoğlu:** "Süni intellekt ya rifah gətirəcək, ya da ciddi təhlükəyə çevriləcək"



**İlon Mask ABŞ-dakı OpenAI məhkəməsində çıxışı zamanı süni intellektin gələcəyi haqqında diqqətçəkən fikirlər səsləndirib. O bildirib ki, süni intellekt insanlığı daha yaxşı vəziyyətə gətirə, amma eyni zamanda öldürə də bilər.**

Sİ-dən istifadənin geniş yayıldığı zamanda Maskın fikirləri geniş müzakirə mövzusuna çevrilib.

**Texnologiya strategiyaları, süni intellekt, kibertəhlükəsizlik və rəqəmsal transformasiya üzrə lider Cengiz Çalıkoğlu Sherg.az-a açıqlamasında İlon Maskın açıqlamasına münasibət bildirib:**

"Burada məsələ sadəcə "süni intellekt yaxşıdır, yoxsa pis?" müzakirəsi deyil. Əsas məsələ onun hansı məqsədlə, hansı məlumat bazası ilə və hansı etik çərçivədə inkişaf etdirilməsidir. İlon Maskın da dediyi kimi, süni intellekt insanlıq üçün böyük rifah və inkişaf potensialı yaratdığı qədər, nəzarətsiz və ya pis niyyətli istifadələr zamanı ciddi risklər də daşıyır.

Xüsusilə düzgün məlumat, arxitektura və düzgün alqoritmlərlə qurulan süni intellekt sistemləri xidmət sektorundan dövlət idarəçiliyinə, maliyyədən səhiyyəyə qədər bir çox sahədə əməliyyat yükünü azaltma potensialına malikdir. Sİ prosesləri avtomatlaşdıra və qurumları real mənada rəqəmsal transformasiyaya daşıya bilər. Burada ən vacib məqam "təmiz və etibarlı məlumat" ilə yanaşı, insan mərkəzli yanaşmanın qorunmasıdır".

**Mütəxəssis qeyd edib ki, süni intellekt yalnız fayda yaratmaq üçün istifadə olunmur:**

"Kibertəhlükəsizlik sahəsində kəşfiyyat, kiberhücumlar, kritik infrastruktur obyektlərinə yönəlmiş təhdidlərlərdə partlamamış bomba rolunu oynaya bilər. Hətta son dövrlərdə müharibə meydanlarında gördüyümüz süni intellekt dəstəkli hədəfləmə sistemləri bu texnologiyanın yanlış əllərdə nə qədər təhlükəli ola biləcəyini açıq şəkildə göstərir. Buna görə də süni intellekt artıq sadəcə texnologiya mövzusu deyil. Eyni zamanda təhlükəsizlik, etik, hüquq və insanlıq məsələsidir.

Digər tərəfdən, eyni süni intellekt düzgün strategiyalarla istifadə edildikdə kibertəhdidlərə qarşı güclü müdafiə mexanizminə də çevrilə bilər. Anomaliya aşkarlanması, hücumların qarşısının alınması, təhdid analizi və kritik sistemlərin qorunması kimi sahələrdə süni intellekt dəstəkli müdafiə yanaşmaları yaxın gələcəkdə daha da həlledici rol oynayacaq".

### "Düzgün əllərdə inkişaf, yanlış əllərdə təhlükədir"

**Ekspert vurğulayıb ki, məsələ texnologiyaya kor-koranə heyran olmaq və ya ona tam qorxu ilə yanaşmaq deyil, əsas məsələ onu hansı dəyərlər əsasında inkişaf etdirdiyimizdir:**

"Süni intellekt düzgün əllərdə böyük inkişaf və tərəqqi gücünə çevrilə, yanlış əllərdə isə ciddi risklər yaradar. Buna görə də texniki potensialla yanaşı etik sərhədlər, şəffaflıq və insan yönümlü yanaşma da ən az texnologiyanın özü qədər vacibdir".

### ELAN

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Tağıyev Elşən Xasay oğlunun adına verilmiş AD 0064462 saylı şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən Əliyev Xəyal Məhərrəm oğlunun adına verilmiş AD 0052111 saylı şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

Əsədov Rafael Murtuza oğluna məxsus əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Bakı Biznes Universitetinin 1-ci kurs tələbəsi Məmmədli Ayan Fariz qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.

# Şiddət "gəlirəm" deyir

## Uşaqlardakı səssiz imdad siqnallarını mütləq görməliyik

*(əvvəli 8-ci səhifədə)*



Gülin Özdamar Ünal həmçinin cəmiyyətdə geniş yayılmış yanlış bir fikrə də diqqət çəkir: psixi xəstəliklə şiddət arasında birbaşa əlaqə yoxdur. Onun sözlərinə görə, psixoloji çətinlik yaşayan uşaqların böyük əksəriyyəti şiddət göstərmir, əksinə, dəstəyə ehtiyacı olan həssas qrupdur.

Valideyn davranışlarına da toxunan mütəxəssis bildirir ki, iki ifrat yanaşma - həddindən artıq qoruma və laqeydlik - uşağın emosional inkişafına zərər verir. Birinci halda uşaq çətinliklərlə baş etməyi öyrənmir, ikinci halda isə özünü görünməz hiss edir. Doğru yanaşma isə sərhəd qoyan, lakin uşağı dinləyən balanslı münasibətdir.

Rəqəmsal mühit də risk faktorlarından biri kimi qeyd olunur. Siber zorbalıq, şiddət məzmununa davamlı baxış və qapalı onlayn qruplarda radikal dil uşaqların psixoloji vəziyyətinə mənfi təsir göstərə bilir. Bu səbəbdən yalnız ekran vaxtına nəzarət deyil, uşağın onlayn dünyası ilə real ünsiyyət də vacib sayılır.

Mütəxəssisin fikrincə, şiddət davranışına yalnız cəza ilə yanaşmaq kifayət etmir. Əsas məqsəd davranışın səbəbini anlamaq, təhlükəsiz mühit yaratmaq və lazım olduqda psixoloji dəstəyə yönləndirməkdir. O vurğulayır ki, uşağın damğalanması deyil, yenidən sağlam sosial həyata qazandırılması əsas hədəf olmalıdır.

Təsisçi: "Şərq Media Qrup" MMC
Baş redaktor: Akif Aşırlı
Baş redaktorun I müavini: Yusif Nəzərli

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, Nihat Müzəffər, Banuçiçək Kalbalıyeva, Aybəniz Səfərova, Elmar İbrahimli

Texniki heyət:
Xaqani Kosayev, Pərvin İbrahimov
İlahə İbrahimova, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap olunur

"Şərq Media Qrup" MMC-yə daxildir:
"Şərq" qəzeti və sherg.az saytı
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41 538-44-50,
Elan, reklam - mob: (050) 313-82-83,
İndeks: AZ1073

Hesab nömrəsi:
Kapital Bank ASC Yasamal filialı
Kod: 200037
VÖEN: 9900003611
M/H: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.: AIIBAZ2XXXX
AZM hesab nömrəsi:
AZ74AIIB400500G9441595487103
VÖEN 1307632991

Tirajı: 1500 Sifariş: 556



## Öncə övladını dünyaya gətirdi

### Sonra bir böyrəyini həyat yoldaşına bağışladı

**İstanbulda yaşayan 38 yaşlı Mehmet Şah Çelik həyat yoldaşı Zozan Çelikin bağışladığı böyrək sayəsində həyata tutundu. Hadisə həm tibb, həm də insanlıq baxımından böyük maraq doğurub.**

"Şərq" xəbər verir ki, məlumata görə, Mehmet Şah Çelik xroniki böyrək çatışmazlığından əziyyət çəkirdi və son mərhələyə yaxınlaşmışdı. Həkimlər ona ən uyğun çıxış yolunun böyrək köçürülməsi olduğunu bildirmişdi. Donor kimi isə hamilə olan həyat yoldaşı seçilib.

Həkimlər riskləri nəzərə alaraq transplantasiyanı qadın doğum etdikdən sonra həyata keçirib. Zozan Çelik körpəsini dünyaya gətirdikdən və müəyyən müddət keçdikdən sonra bir böyrəyini həyat yoldaşına bağışlayıb. Əməliyyat uğurla keçib.

Zozan Çelik emosional açıqlamasında "həyat yoldaşımı çox sevirəm, ehtiyac olsa, ürəyimi belə verərdim. Bir böyrəklə də yaşamaq mümkündür" deyib.

Həkimlər bildirirlər ki, transplantasiya sonrasında xəstənin vəziyyəti stabil davam edir və ailə normal həyata qayıdıb.

Eyni zamanda mütəxəssislər böyrək xəstəliklərinin çox vaxt gizli irəlilədiyini, su içmə rejimi, duz istifadəsi və dərmanlara diqqətin həyati əhəmiyyət daşıdığını vurğulayıblar.

Hadisə həm həkimlər, həm də ictimaiyyət tərəfindən "sevgi və fədakarlığın ən güclü nümunələrindən biri" kimi dəyərləndirilib.

## Heyrətamiz nəticə

### Qadınlar bunu kişilərdən daha çox istifadə edir



**Araşdırmalar göstərir ki, qadınlar yazılı ünsiyyətdə kişilərə nisbətən təxminən üç dəfə daha çox durğu işarəsi istifadə edirlər.**

"Şərq" xəbər verir ki, mütəxəssislərə görə, bunun səbəbi emosionallıqdan çox, sosial gözləntilərdir. Cəmiyyət qadınlardan daha səmimi, yumşaq və "isti" ünsiyyət tərzi gözlədiyi üçün bu, yazı dilinə də təsir edir.

Araşdırmada qeyd olunur ki, sosial mediada və mesajlaşmada nöqtə ilə bitən cümlələr bəzən "soyuq" və "məsafəli" kimi qəbul edilir. Bu səbəbdən xüsusilə gənclər və qadınlar durğu işarəsi ilə tonu yumşaltmağa üstünlük verirlər.

Lakin mütəxəssislər xəbərdarlıq edir ki, həddindən artıq durğu istifadəsi yazının ciddiliyini azaldır və peşəkar ünsiyyətdə yanlış təsir yaradır.

Nəticə olaraq, durğu işarəsi təkcə qrammatika deyil, həm də sosial davranış və gender gözləntilərinin bir göstəricisi kimi dəyərləndirilir.

## Ailəlikcə süfrə uşaqlara super təsir edir

### Yeniyetmələrdə maddə istifadəsi, depressiya, zorakılıq və intihar düşüncələri riskini azaldır



**Mütəxəssislərin fikrincə, ailə ilə birlikdə yemək yemək uşaqların psixoloji inkişafına müsbət təsir göstərir.**

"Şərq" xəbər verir ki, araşdırmalar göstərir ki, ailə yeməkləri yeniyetmələrdə maddə istifadəsi, depressiya, zorakılıq və intihar düşüncələri riskini azaldır.

Lakin yeni tədqiqatlara görə, əsas amil yeməyin özü deyil, ailə daxilindəki ünsiyyətin keyfiyyətidir. Telefonlardan uzaq, səmimi söhbətlərin olduğu yemək mühitləri daha müsbət nəticələr verir.

Araşdırma həmçinin göstərir ki, ağır travma yaşayan yeniyetmələrdə təkcə ailə yeməkləri kifayət etmir və əlavə psixoloji dəstəyə ehtiyac ola bilər.

Mütəxəssislər bildirir ki, hər gün birlikdə yemək mümkün olmasa da, valideynlə uşaqlar arasında gündəlik qısa ünsiyyət anları belə mühüm rol oynayır.

## 10 yaşında, tam 92 cinayət qeydi var

### Uşaq İstanbulda saxlanıldı



**İstanbulun Sarıyer rayonunda alış-veriş mərkəzində uşaqları ilə vaxt keçirən 35 yaşlı Melike A.-nın uşaq arabasından asılı çantası oğurlanıb. İçində mobil telefon, 1400 lirə nağd pul və pul kisəsi olan çantanı 10 yaşlı D.T. oğurlayıb. Şübhəli daha sonra taksi ilə qaçarkən Sarıyer Asayiş Bürosu əməkdaşları tərəfindən saxlanılıb.**

"Şərq" xəbər verir ki, hadisə dünən saat 19:00 radələrində İstinye bölgəsində yerləşən alış-veriş mərkəzində baş verib. Məlumata görə, Melike A. uşaqları ilə mərkəzdə olduğu zaman uşaq arabasında asılı çantasının yerində olmadığını görüb.

Çantada təxminən 100 min lirə dəyərində mobil telefon, 1400 lirə nağd pul və pul kisəsinin olduğu bildirilib. O, dərhal polisə məlumat verərək şikayət edib.

Sarıyer Asayiş Bürosu əməkdaşları hadisə yerindəki və ətrafdakı təhlükəsizlik kameralarını araşdırmağa başlayıb. Araşdırma nəticəsində müəyyən edilib ki, şübhəli alış-veriş mərkəzində gəzərək bir müddət sonra uşaq arabasına yaxınlaşıb çantanı götürüb və daha sonra taksi ilə ərazidən uzaqlaşıb.

Polis tərəfindən izlənilən 34 TJV 54 dövlət nömrə nişanlı taksi Böyükdərə küçəsi TEM bağlantı yolunda saxlanılıb. Avtomobildə aparılan yoxlama zamanı çantanı oğurladığı müəyyən edilən D.T. oğurlanmış əşyalarla birlikdə yaxalanıb.

Polis idarəsinə aparılan 10 yaşlı uşağın "oğurluq" cinayətindən 92 qeydinin olduğu müəyyən edilib. D.T. Sarıyer Uşaq Polis Şöbəsinə təhvil verilib, oğurlanan əşyalar isə sahibinə qaytarılıb.



# Şiddət "gəlirəm" deyir

### Uşaqlardakı səssiz imdad siqnallarını mütləq görməliyik

**Türkiyədə, Azərbaycanda baş verən məktəb hücumlarından sonra uşaqlarda şiddət meyilləri və bu davranışların səbəbləri yenidən ciddi müzakirə mövzusuna çevrilib. Mütəxəssislər bildirir ki, belə hadisələr birdən-birə baş vermir, əksinə, uzun müddət yığılan psixoloji və sosial problemlərin "partlayış nöqtəsi" olur.**

**"Şərq" xəbər verir ki, Türkiyə Psixiatriya Dərnəyinin rəsmisi Gülin Özdamar Ünalın** sözlərinə görə, ən böyük problem ailə və məktəbin bu siqnalları gec və ya ümumiyyətlə görməməsidir. O qeyd edir ki, şiddət davranışı əvvəlcədən görünən kiçik, lakin davamlı dəyişikliklərlə özünü göstərir.

Mütəxəssis uşaqlarda xüsusilə sosial münasibətlərdən uzaqlaşma, dostluqların zəifləməsi, məktəbə marağın azalması, artan aqressiya, tez-tez haqsızlığa uğrama hissi və intiqam mövzulu ifadələrin ciddi xəbərdarlıq siqnalları olduğunu bildirir. Onun fikrincə, bu əlamətlər ayrı-ayrılıqda sadə görünsə də, birlikdə olduqda ciddi risk göstəricisinə çevrilir.

Ünal vurğulayır ki, uşaqlarda şiddət davranışı tək bir səbəblə izah edilə bilməz. Ailəiçi konfliktlər, emosional laqeydlik, məktəbdə zorbalıq, sosial təcrid, travmalar və rəqəmsal mühitdə şiddət məzmununa davamlı məruz qalma bu prosesin əsas faktorlarıdır. Bu amillər birləşdikdə uşaq özünü "görülməyən və anlaşılmayan" hiss edir ki, bu da davranış pozuntularına yol açır.

**Mütəxəssis uşaqlarda diqqət edilməli əsas əlamətləri belə sıralayır:** qəfil içə qapanma, sinir partlayışları, yuxu rejiminin pozulması, məktəb uğursuzluğunun artması, empati hissinin zəifləməsi, şiddət mövzularına həddindən artıq maraq və özünə və ya başqalarına zərər vermə ilə bağlı ifadələr. Onun sözlərinə görə, bu dəyişikliklər "keçici dövr" kimi qəbul edilməməli, ciddi siqnal kimi qiymətləndirilməlidir.

*(davamı 7-ci səhifədə)*



# Maraqlı araşdırma

### Təkcə həyatı deyil, mikrobları da paylaşmış olursunuz

**Araşdırmalar göstərir ki, birlikdə yaşayan insanlar bağırsaq bakteriyalarının təxminən 30 faizini, ağız bakteriyalarının isə 38 faizə qədərini bir-biri ilə bölüşürlər. Bu o deməkdir ki, sağlamlığınız müəyyən mənada kiminlə yaşadığınızdan asılıdır.**

İnsan mikrobiomu - dəridə və orqanizmin daxilində yaşayan bakteriyalar, viruslar və göbələklər də daxil olmaqla mikroorqanizmlər topluluğudur. Bu mikroblar yaxın təmas və ortaq məkanlar vasitəsilə yayılır. Birlikdə yaşayan insanlar mikrobları mübadilə edir və zamanla bir-birinin sağlamlığına belə təsir göstərə bilirlər. Bəs ortaq yaşayış mühiti mikrobiomunuzu necə formalaşdırır?

"Şərq" mütəxəssislərə istinadən xəbər verir ki, Dr. Françesko Beqhini bildirir ki, birlikdə yaşayan insanların mikrobioloji müxtəlifliyi bir-birinə bənzəyir və onların orqanizmində təəccüblü dərəcədə oxşar mikrob növləri mövcuddur.

**Araşdırmalara görə:**

**Bağırsaq:** Partnyorlar və eyni evdə yaşayan insanlar bağırsaq bakteriya ştammlarının (alt növlərinin) təxminən 30 faizini paylaşır.

**Ağız:** Eyni evi paylaşan cütlüklər ağız mikrobiomunun 38 faizə qədərini ortaq daşıyır.

**Dəri:** Dəri mikrobiomu bağırsaq və ağızla müqayisədə cütlüklər arasında ən yüksək oxşarlığın müşahidə olunduğu sahədir.

**Gündəlik yaxın təmas** - birlikdə yemək yemək, fiziki kontakt və ortaq ev mühiti bakteriyaların paylaşılması üçün imkan yaradır. Tək yaşayan insanlar da ətraf mühit vasitəsilə müəyyən bakteriyalar əldə edir, lakin eyni evdə yaşayan şəxslərin mikrobiomu zamanla bir-birinə daha çox bənzəyir. Üstəlik, insanlar birlikdə nə qədər uzun müddət yaşayırsa, mikrobiomları da bir o qədər oxşar olur.

**Dr. Hariom Yadav isə qeyd edir:** "Qidalanma, genetika və istifadə olunan dərmanlar mikrobiomu formalaşdırır, lakin sosial çevrə və eyni evi paylaşdığımız insanlar bağırsaq sağlamlığında çox böyük rol oynayır".

Mütəxəssislərin fikrincə, mikrobların paylaşılması faydalı ola bilər, lakin bu, hər iki şəxsin sağlamlıq vəziyyətindən asılıdır. Əgər partnyorlardan biri sağlam və müxtəlif mikrobioma sahibdirsə, bu, digərində həzm sistemini, immuniteti və ümumi sağlamlığı müsbət şəkildə dəstəkləyə bilər.

Yüksək mikrobioloji müxtəliflik adətən daha güclü immun sistem və daha yaxşı metabolik funksiyalarla əlaqələndirilir. Buna görə sağlam partnyorla mikrobların paylaşılması mikrobiomu daha balanslı və sağlam istiqamətə yönəldir.

**Lakin bu proses ikitərəflidir:** əgər bir şəxsdə xəstəlik yaradan (patogen) mikroorqanizmlər və ya mikrobiom balanssızlığı varsa, bunlar da keçə bilər və müəyyən xəstəliklərə, məsələn, ishala qarşı həssaslığı artıra bilər.

Digər tərəfdən, tədqiqatçılar bildirir ki, aşağı səviyyədə zərərli mikroblara məruz qalmaq həmişə pis deyil -bu, immun sistemini "öyrədərək" onu daha dözümlü edə bilər. Əsas məsələ balansdır.

Beqhini qeyd edir ki, eyni evdə yaşayan insanların qidalanma və həyat tərzi seçimləri bir-birinin mikrobiom sağlamlığına təsir göstərir. Yəni yediyiniz qidalar, idman vərdişləriniz və gündəlik sağlamlıq davranışlarınız təkcə sizə deyil, birlikdə yaşadığınız insana da təsir edir.

Gələcəkdə mikrobların zamanla necə dəyişdiyini daha yaxşı anlamaq üçün əlavə tədqiqatlara ehtiyac var. Sosial təcridin mikrobioloji müxtəlifliyi azaldıb-azaltmadığı və mikrobiomun yaşlanma ilə necə dəyişdiyi araşdırılır. Bu kimi tədqiqatlar həm fərdi, həm də ortaq sağlamlıq üçün daha dəqiq yanaşmaların inkişafına kömək edir.

**Hazırladı: Turan**

## Elmə görə ən yaxşı dərman

### Rəqs depressiyanı azaldır



**Dünya Rəqs Günü ilə bağlı yayılan elmi araşdırmalar göstərir ki, musiqi müşayiəti ilə birlikdə rəqs etmək depressiya əlamətlərinin azaldılmasında olduqca güclü təsirə malikdir. Tədqiqatlara əsasən, rəqs bəzən gəzinti, yoqa və hətta standart antidepresan müalicələrdən daha effektiv nəticə verə bilər.**

"Şərq" xəbər verir ki, 2024-cü ildə aparılan geniş meta-analiz 200-dən çox klinik tədqiqatı əhatə edib və rəqsin depressiya simptomlarını əhəmiyyətli dərəcədə azaltdığını ortaya qoyub. Alimlər bunun səbəbini təkcə fiziki hərəkətdə deyil, həm də musiqi, sosial əlaqə və emosional ifadənin birlikdə yaratdığı təsirdə görürlər.

Nevroloqların fikrincə, rəqs zamanı beyində dopamin, endorfin və oksitosin kimi "xoşbəxtlik hormonlarının" səviyyəsi artır. Bu isə stressi azaldır, insanı daha sakit və sosial edir.

Araşdırmalar göstərir ki, xüsusilə qrup halında rəqs edən insanlarda beyin dalğaları sinxronlaşır və bu da güclü "aidiyyət və bağlanma hissi" yaradır.

Mütəxəssislər vurğulayırlar ki, rəqs insanın özünü sözsüz ifadə etməsinə imkan verir və bu xüsusiyyət, xüsusilə depressiya yaşayan insanlar üçün terapevtik təsir göstərir.

Elmi nəticələrə görə, rəqs təkcə idman və ya əyləncə deyil, eyni zamanda əlçatan, ucuz və təbii psixoloji dəstək vasitəsi kimi ön plana çıxır.

## Nəsrin Cavadzadə səssiz-səmirsiz evləndi



**Türkiyədə fəaliyyət göstərən tanınmış azərbaycanlı aktrisa Nəsrin Cavadzadə bir müddətdir sevgi münasibəti yaşadığı Kadir Taner Uçar ilə nikah masasına oturdu.**

"Şərq" xəbər verir ki, Nəsrin Cavadzadə sevgilisi Kadir Taner Uçar ilə həyatını birləşdirdiyini açıqladı.

Məşhur aktrisa gözlərdən uzaq yaşadığı münasibətdə olduğu Uçar ilə Bodrumda sadə nikah mərasimi ilə evləndi. Sürpriz nikah Cavadzadənin pərəstişkarlarını təəccübləndirdi.

Cavadzadə keçmişdə verdiyi bir müsahibədə belə demişdi:

"Evlənən kimi dərhal uşaq sahibi olmağı planlaşdırıram. Həyatda ən çox istədiyim şey ana olmaqdır".

Cavadzadə həmçinin pudel cinsindən olan iti Dolceni nikaha hazırladığı anları əks etdirən bir kadrı da izləyiciləri ilə paylaşaraq xoşbəxtliyini fərqli detallarla nümayiş etdirdi.

Aktrisa daha sonra nikahdan olan fotoları da sosial media hesabında izləyiciləri ilə bölüşdü.